www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 29 iyun-1 iyul 2019-cu il Şənbə № 137 (7307) Qiyməti 60 qəpik

Xəbər

## Proporsional seçki sisteminin bərpası yenidən gündəmdə

yazısı səh.7-də

# MOSKVADAN PAŞİNYANA HƏBS HƏDƏSİ GƏLDİ: "RUSİYA BUNU UNUTMAYACAQ!.."

İrəvan Moskva ilə yanaşı, Tiflisə də "əlcək" atdı - Cavaxetiya "kartı" yenidən ortada; Gürcüstanın mərkəzi hakimiyyəti iki işğalçının təhdidləri ilə üz-üzə...



yazısı səh.8-də

## Deputatdan iqtisadiyyatımızla bağlı önəmli təkliflər, ilginc şərhlər

**Əli Məsimli:** "Ərazisi bizdən iki dəfə kiçik olan Hollandiya innovasion əsaslarla qurduğu kənd təsərrüfatı üzrə ildə 102-103 milyard dollarlıq məhsul ixrac edir, bizdə də..."

yazısı səh.5-də

Gündəm

## Sosial islahatlar paketinin davamında nələr var - ekspert rəyi



Vüqar Bayramov uşaq pulu, elektrik limiti, minimum ərzaq səbəti ilə bağlı yeni qərarlar verilməsini vacib sayır

yazısı səh.3-də

## Bakıdan İrəvana daha bir müharibə xəbərdarlığı

yazısı səh.11-də

## Xəzəri çirkləndirən istirahət mərkəzlərinin sahibləri cəzalandırıldı

yazısı səh.2-də

## Azərbaycanda 5 regional "ASAN Xidmət" mərkəzi fəaliyyətə başlayacaq

yazısı səh.3-də

## Məktəb direktorları 300 manat cərimələnə bilər - xəbərdarlıq

yazısı səh.2-də

## Türkiyə siyasətinə yeni partiya gəlir

yazısı səh.9-da

## Rusiya səfirliyinin nümayəndəsi Azərbaycan XİN-ə çağırıldı - səbəb

yazısı səh.4-də

## Ərəb ölkələri ABŞ-İran müharibəsinə qarşı

yazısı səh.9-da

## Girov Elvin İbrahimov Azərbaycana, Zaven Karapetyan isə Ermənistana təhvil verildi

yazısı səh.4-də

## Yaşayış binalarında insanların rahatlığını pozan "moyka"lar

yazısı səh.10-da

## Oyuncaq tapança ilə basqına gedənlərə ağır cəza verildi

yazısı səh.13-də



*Tural Abbaslı:*

**"Müxalifət öz daxilində yeni liderlər yetişdirib cəmiyyətə təqdim etməlidir"**

yazısı səh.7-də



*İlham İsmayıl:*

**"Gəncə hadisələrindən düşmən güclər istifadə edə bilərdi"**

yazısı səh.6-da



*Doktor Seyfəddin Əsəd:*

**"Yeganə nəzarət olunmayan orqan beyindir"**

yazısı səh.12-də



## Biləsuvarda yol tikintisinə 5,6 milyon manat ayrıldı

**Prezident İlham Əliyev Biləsuvar rayonunun Biləsuvar-Bəhrəmtəpə (56 km)-Çaylı-Bağbanlar-Aranlı-Zəhmətabad avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

"Report"un məlumatına görə, sərəncamla on iki min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Biləsuvar-Bəhrəmtəpə (56 km)-Çaylı-Bağbanlar-Aranlı-Zəhmətabad avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 5,6 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

## Prezident İlham Əliyevdən yeni təyinatlar





**Prezident İlham Əliyev Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Aparat rəhbəri Anar Adil oğlu Quliyevin qurumun sədrinin I müavini, Bakı Dövlət Layihə İnstitutunun direktoru İlqar Aydın oğlu İsbatovun isə sədr müavini vəzifələrinə təyin edilməsi barədə sərəncamlar imzalayıb.**

"Report" bu barədə Dövlət Komitəsinə istinadən xəbər verir.

## AYB üzvlərinin yaradıcılıq şəraitinin yaxşılaşdırılmasına 3 milyon manat ayrılıb

**Prezident İlham Əliyev Azərbaycan Yazıçılar Birliyi üzvlərinin yaradıcılıq şəraitinin yaxşılaşdırılması tədbirləri haqqında sərəncam imzalayıb. "Report"un məlumatına görə, sərəncamla Yazıçılar Birliyinin Şüvəlandakı Səməd Vurğun adına Yaradıcılıq Evinin rekonstruksiyası və təmiri üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Əmlak Məsələləri Dövlət Komitəsinə ilkin olaraq 3 milyon manat ayrılıb.**

## Xəzəri çirkləndirən istirahət mərkəzlərinin sahibləri cəzalandırıldı

**Xəzər dənizi sahillərində ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərinə riayət olunmasını yoxlamaq məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin nümayəndələri ilə birgə növbəti reyd keçirib.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən Musavat.com-a verilən məlumata görə, reyd zamanı Şıx çimərliyi ərazisində fəaliyyət göstərən " 1001 gecə", "Eldorado", "Aqua Park" və "Dostluq" istirahət mərkəzlərində formalaşan tullantı sularının təmizlənmədən Xəzər dənizinə axıdıldığı aşkar edilib.

Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərini pozduqlarına görə istirahət mərkəzlərinə cavabdeh şəxslər Raul Qasımov, Rəşad Hüseynov, Zaur Hüseynli və Azər İsmayılov barəsində protokol tərtib olunub və onların hər biri 4000 manat məbləğində cərimə edilib. Çirkab sutəmizləyici qurğuların quraşdırılması üçün obyekt sahiblərinə icrası məcburi olan "məcburi göstəriş"lər verilib. "Məcburi göstəriş"lərin tələbləri icra olunmadığı təqdirdə məhkəməyə müraciət olunacaq.

# "AXCP sədri Əli Kərimliyə xəbərdarlıq edilib" - DİN

**DİN-in mətbuat xidmətindən Musavat.com-a verilən məlumata görə, iyunun 28-də AXCP sədri Əli Kərimli Binəqədi rayonu ərazisində yerləşən Müsavat Partiyasının qərargahının qarşısından qanunsuz yürüş keçirilməsi barədə sosial şəbəkələrdə yaydığı çağırışla əlaqədar Binəqədi Rayon Polis İdarəsinə dəvət edilib.**



Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmamış ərazilərdə mitinq və qanunla müəyyən edilmiş qaydada təşkil edilməyən toplantının keçirilməsinə cəhdin "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə zidd olduğu onun nəzərinə çatdırılıb.

İctimai asayişin pozulmasına yönələn belə qanunsuz hərəkətlərin qarşısı bundan sonra da qanunvericiliklə müəyyən edilmiş qaydada alınmaqla, təşkilatçıların məsuliyyətə cəlb olunacaqları barədə "Prokurorluq haqqında" Qanunun tələblərinə uyğun olaraq ona rəsmi xəbərdarlıq edilib və sərbəst buraxılıb.

❑ **Musavat.com**

## Saakaşvili barəsindəki cinayət işi bağlandı

**Ukrayna Ali Məhkəməsində Gürcüstanın keçmiş prezidenti, Odessa vilayətinin sabiq qubernatoru Mixail Saakaşvilinin Ukrayna vətəndaşlığından məhrum edilməsi üzrə cinayət işi bağlanıb.**

RİA "Novosti" xəbər verir ki, məlumatı Ali Məhkəmənin saytı yayıb.

Bildirilib ki, məhkəmə Ukrayna prezidenti Vladimir Zelenskinin 2019-cu il mayın 28-də imzaladığı fərmana əsasən Mixail Saakaşvilinin vətəndaşlığının bərpa edilməsi haqqında qərar qəbul edib. Bu qərardan Ukrayna Ali Məhkəməsinin Böyük Palatasına şikayət edilə bilər.

Qeyd edək ki, Ukraynanın keçmiş prezidenti Petro Poroşenko 2017-ci ilin oktyabrında Mixail Saakaşvilinin ölkə vətəndaşlığından məhrum edilməsinə dair fərman imzalamışdı. (Virtualaz.org)




## Məktəb direktorları 300 manat cərimələnə bilər - xəbərdarlıq

**Dövlət İmtahan Mərkəzi tərəfindən 2018/2019-cu tədris ili üçün ümumtəhsil müəssisələrində buraxılış sinif şagirdlərinin biliyinin yekun qiymətləndirilməsi prosesinə başlanılıb.**

Mərkəzdən Milli.Az-a verilən məlumata görə, bununla əlaqədar olaraq ümumtəhsil müəssisələri "Şagird-məzun" dövlət elektron məlumat sisteminə buraxılış sinif şagirdlərinin illik qiymətlərini vaxtında, tam və düzgün daxil edib təsdiqləməlidirlər.

Xatırladırıq ki, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 599-cu maddəsinə əsasən ümumi təhsil və peşə təhsili müəssisələrinin "Şagird-məzun" dövlət elektron məlumat sisteminə qoşulmamasına və ya məlumatların həmin sistemə vaxtında, tam və ya düzgün daxil edilməməsinə görə vəzifəli şəxslər iki yüz manatdan üç yüz manatadək məbləğdə, hüquqi şəxslər iki min beş yüz manatdan üç min manatadək məbləğdə cərimə edilir.



## ABŞ və Rusiya prezidentləri Yaxın Şərq, Venesuela və Ukraynadakı vəziyyəti müzakirə edib

**Rusiya və ABŞ prezidentləri - Vladimir Putinlə Donald Tramp 21-ci əsrin silahlara nəzarət modelləri ilə bağlı müzakirələri davam etdirməyi planlaşdırırlar.**

"Report" RİA "Novosti"yə istinadən xəbər verir ki, bu barədə Yaponiyanın Osaka şəhərində keçirilən "G-20" sammiti çərçivəsində ABŞ və Rusiya liderlərinin görüşünün yekununda Ağ Evin twitter səhifəsinin məlumatında deyilir.

Məlumatda bildirilir ki, ölkə başçıları münasibətlərin yaxşılaşdırılmasında hər iki tərəfin, eləcə də bütün dünyanın maraqlı olduğu fikri ilə razılaşıblar. Onlar həmçinin İran, Suriya, Venesuela və Ukraynadakı vəziyyəti müzakirə ediblər.

Qeyd olunur ki, prezidentlər həmçinin ikitərəfli münasibətlərin mövcud vəziyyəti barədə danışıblar.

Rusiya prezidenti Vladimir Putin amerikalı həmkarı Donald Trampı Böyük Vətən müharibəsinin başa çatmasının 75-ci ildönümünə həsr olunacaq bayram tədbirinə dəvət edib.

"Rossiya24" xəbər verir ki, bunu Rusiya prezidentinin köməkçisi Yuri Uşakov bildirib.

"Biz ABŞ prezidentini gələn il mayın 9-da Böyük Vətən müharibəsində qələbənin 75 illiyi münasibətilə Rusiyaya dəvət etdik", - o vurğulayıb.

Onun sözlərinə görə, ABŞ lideri dəvəti müsbət qarşılayıb.(Virtualaz.org)

## "İran neftini idxal edən istənilən ölkəyə sanksiya tətbiq edəcəyik" - ABŞ-ın xüsusi nümayəndəsi

**"ABŞ İran neftini idxal edən istənilən ölkəyə sanksiya tətbiq edəcək".**

APA-nın "Reuters"ə istinadən verdiyi xəbərə görə, bu sözləri ABŞ-ın İran üzrə xüsusi nümayəndəsi Brayan Huk Londonda jurnalistlərin suallarını cavablandırarkən deyib.

Brayan Huk əlavə edib ki, ABŞ İranın xam neftinin Çinə ixracı ilə bağlı məlumatlara da nəzər yetirəcək.

## Giləzidə 16 ədəd «F-1» əl qumbarası tapılıb

**Daxili İşlər Nazirliyinin 102 Xidməti-Zəng mərkəzi sisteminə Xızı rayonu, Giləzi qəsəbəsi ərazisində mərminin tapılması barədə məlumat daxil olub.**

Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentlikdən (ANAMA) APA-ya verilən məlumata görə, agentliyin xüsusi mobil çevik əməliyyat qrupu, Daxili İşlər Nazirliyinin Xızı Rayon Polis Şöbəsinin və Xüsusi Dövlət Mühafizə Xidmətinin əməkdaşları dərhal həmin əraziyə göndərilib.

Agentliyin mütəxəssisləri, Xızı Rayon Polis Şöbəsinin və Xüsusi Dövlət Mühafizə Xidmətinin əməkdaşları tərəfindən birlikdə yuxarıda adı qeyd olunmuş əraziyə baxış keçirilib. Təhlükəsizliyi təmin etmək məqsədilə ərazi xüsusi xidmət orqanları tərəfindən mühasirəyə alınıb. Agentliyin mütəxəssisləri tərəfindən aparılan təcili təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində 16 ədəd "F-1" əl qumbarası və 10 ədəd UZRQM partladıcısı aşkar olunub, zərərsizləşdirilməsi üçün götürülərək agentliyin mərkəzi məhvetmə ərazisinə daşınıb. Əl qumbaralarının və partladıcıların ətrafında 500 kv.m əraziyə yerüstü baxış keçirilib, əlavə təhlükəli əşya və qurğu aşkarlanmayıb.

YENİ MÜSAVAT
N 137 (7307) 29 iyun 2019

# Sosial islahatlar paketinin davamında nələr var - ekspert rəyi

## Vüqar Bayramov uşaq pulu, elektrik limiti, minimum ərzaq səbəti ilə bağlı yeni qərarlar verilməsini vacib sayır

**Azərbaycanda 2019-cu il sosial islahatlarla yadda qaldı. Əmək haqları, pensiyalar, təqaüd və müavinətlər artırıldı, minimum əmək haqqının artımı ilə bağlı iki dəfə qərar verildi, problemli kreditlər həllini tapdı, təbii qazın güzəştli qiymətlə istifadə limiti artırıldı. Bəs görəsən, sosial islahatlar paketinin davamı kimi hansı addımların atılmasına ehtiyac var?**

“Yeni Müsavat”ın sualını cavablandıran **iqtisadçı ekspert Vüqar Bayramov** bildirdi ki, sosial islahatların davamı kimi uşaq pulunun və elektrik enerjisinin güzəştli qiymətlə istifadə limitinin artırılmasına ehtiyac var: “İqtisadi və Sosial inkişaf Mərkəzi uşaq pulunun artırılması ilə bağlı Azərbaycan hökumətinə mexanizm hazırlayaraq təqdim edib. Bu mexanizmə uyğun olaraq, biz uşaq pulunun bərpasını təklif edirik. 17 yaşınadək olan uşaqlara uşaq pulunun verilməsi təklif olunur. Biz uşaqları 3 yaş qrupu üzrə ayırmışıq. 3 yaşınadək olan uşaqlara daha çox uşaq pulunun verilməsinin tərəfdarıyıq, çünki bu ailələr adətən gənc ailələr olur, həm də uşaqların səhiyyə və digər xərcləri çox olur. Daha sonra 7 yaşınadək olan uşaqlara və 7 yaşından 17 yaşınadək uşaqlara aylıq ödənişin həyata keçirilməsi bu təkliflərdə öz əksini tapıb. Layihədə həmçinin hər yaş qrupu üzrə uşaqların sayı və tələb olunan büdcə öz əksini tapıb. Bizim mexanizm həm rasional məbləğ çərçivəsində uşaq pulunun bərpasına imkan verir, həm də dövlət büdcəsinə böyük yük yaratmır. Biz bunun bazara təsirini də hesablamışıq. Uşaq pulunun mərhələli şəkildə bərpası bazara çıxarılan vəsaitin də həcminin optimallaşmasına səbəb olur ki, bu da qiymət artımlarının qarşısının alınması baxımından çox vacibdir. Yəni bu mexanizm, bazarda qiymətlərin artmasının da qarşısını ala biləcək faktorlar nəzərə alınmaqla hesablanıb. Güman edirəm ki, uşaq pulunun bərpası vacibdir”.

**V.Bayramovun sözlərinə görə, dünyanın əksər ölkələrində uşaq pulu verilir:** “Bizim mərkəz beyin mərkəzi olaraq fərqli ölkələrdə uşaq pulunun verilməsi mexanizmini araşdırıb və bizim araşdırmalar göstərir ki, dünyanın bütün inkişaf etmiş ölkələrində uşaq pulu verilir. Bəzi ölkələrdə bu, uşaqların sayına uyğun olaraq, bəzilərində ailənin gəlirlərinə uyğun müəyyənləşib. Ancaq mexanizm fərqli olsa da bütün inkişaf etmiş ölkələrdə uşaq pulu verilir. Biz inkişaf etmiş ölkələrin, hətta inkişaf etməkdə olan ölkələrin, o cümlədən Rusiyanın təcrübəsini nəzərə alaraq bu paketi hazırlamışıq. Ona görə də hökumətə təklif edirik ki, növbəti mərhələdə sosial paketin davamı olaraq uşaq pulunun mərhələli şəkildə bərpası həyata keçirilsin. Bunun üçün bir tərəfdən sosial çağırış var, digər tərəfdən maliyyə imkanlarımız var. Həmçinin ölkədə sosial islahatların davamı ilə bağlı siyasi iradə var. Bu da ondan xəbər verir ki, hökumət yeni bir mexanizm hazırlamaqla prosesə başlaya bilər. Bizim hazırladığımız mexanizm prosesə başlamaq üçün yetərlidir və uşaq pulunun bərpası bu mexanizm əsasında mümkündür. Bunun üçün ölkədə həm sosial, həm də maliyyə əsasları var. Ümid edirik ki, yaxın zamanlarda sosial paketin bərpası kimi uşaq pulunun bərpası da həyata keçiriləcək”.



**İşıq limitinə gəlincə, ekspert qeyd etdi ki, bir çox iqtisadi və sosial faktorlar işığın limitinin artırılması üçün iqtisadi zəmin yaradır:** “Xüsusən sektoral olaraq gəlirin artmasını müşahidə edirik. Nəticədə sektoral dəyişikliklər işığın limitinin artırılmasına imkan verir. O baxımdan həm makro, həm də sektoral faktorlar limitin artırılması üçün baza formalaşdırıb. Limitin artırılması sosial təminat baxımından da vacibdir. Xüsusən aztəminatlı vətəndaşların sosial təminatının gücləndirilməsi baxımından mühüm şərtlərdən biridir. İşığın limitinin vətəndaşların sosial vəziyyətinə müsbət təsir göstərəcək səviyyədə artırılmasına ehtiyac var”.

**İqtisadçı ekspert Natiq Cəfərli isə “Yeni Müsavat”a açıqlamasında həyata keçirilməsi vacib olan digər sosial islahatlardan danışdı. O bildirdi ki, İlk olaraq minimum istehlak zənbilinin və yaşayış minimumunun hesablanması məsələsi gündəmə gələcək:** "Yaxın günlərdə bununla bağlı yeni hesablamaların aparılması və yeni qaydaların tətbiqi gündəmə gələ bilər. Sonuncu dəfə bu sahədə yenilənmə 20140-cü ildə olub, bu hətta devalvasiyadan da öncə olub. Sonuncu dəfə 5 il öncə atılan bu addım artıq bugünkü qiymətlər, vətəndaşların tələbatına, dünya praktikasına və yenilənmiş minimum istehlak zənbili anlayışına cavab vermir. Yaşayış minimumu və minimum istehlak zənbili ilə bağlı məsələ sentyabr ayına qədər həllini tapa bilər. Çox güman ki, ya Nazirlər Kabinetinin qərarı, ya da xüsusi prezident fərmanı olacaq. Bu, sosial paketin davamı baxımından çox mühümdür. Payız aylarında minimum əmək haqqı və minimum pensiyanın artırılması da gözlənilir. Minimum istehlak səbəti də buna uyğunlaşdırılmalıdır. O baxımdan növbəti addımın bu sahədə olacağını gözləyirəm".

**Ekspertin sözlərinə görə, qaz limiti ilə bağlı qərar verilsə də, elektriklə bağlı qərarın yaxın zamanda olacağı gözlənilmir:** “Minimum əmək haqqının və təqaüdün artırılması, sentyabr ayında digər sahələrdə də maaş artımının olacağı gözlənilir. Maaş artımı təxminən 400 min nəfəri əhatə edəcək, təqaüdün minimum hissəsinin artırılması 800 min insanı əhatə edəcək, minimum əmək haqqının artırılması isə 600 min nəfər insanı əhatə edəcək. Sentyabr ayından minimum əmək haqqı 180 manatdan 250 manata qalxacaq. O baxımdan gələcəkdə büdcədə problem yaranmasın deyə, kommunal sahədə bu cür addımın atılacağını gözləmirəm. Kommunal xərclərdə limit və ya qiymətlə bağlı endirim ediləcəyini gözləmirəm. Uşaq pulunun verilməsi və hesablanması ilə bağlı məsələ də gündəmdədir. Ola bilər ki, burada da ümumi qaydalar tətbiq olunsun, ödənişlərin sistemləşdirilməsi məsələsinə yenidən baxılsın. Ola bilər ki, burada ümumi qaydalar tətbiq olunsun və ödənişlərin sistemləşdirilməsi məsələsinə yenidən baxılsın. Bu günə qədər müxtəlif təkliflər səsləndirilib. Aztəminatlı ailələr və çoxuşaqlı ailələrlə bağlı yeni ödəniş sisteminin tətbiq olunması da artıq gündəmə gələcək. İndiki hesablama qaydaları ilə müasir standartlara cavab verməyən uşaq pulu ortaya çıxacaq”.

**N.Cəfərli vurğuladı ki, sentyabr ayına qədər qeyd olunan məsələlərin həlli ilə bağlı yeni qərarların olması ehtimalı var:** “Ancaq gələn ilin əvvəlinə qədər minimum əmək haqqı və minimum pensiya ilə bağlı yeni qərarın olmasını gözləmirəm. Çünki gələn ilin yanvar ayından artıq artırılmış maaşların orta aylıq əmək haqqının artım tempinə görə indeksləşməsi olacaq. Hazırda bu rəqəm 3 faizdir, gələn ilin yanvar ayında 4 faiz olması gözlənilir. Yəni yanvar ayında artırılmış maaş və təqaüdlər ən azı 4 faiz yenidən indeksləşəcək və artırılacaq”.

❑ **Nərgiz LİFTİYEVA, “Yeni Müsavat”**

# Azay Quliyev seçicilərini qəbul edib

**İyunun 28-də Milli Məclisin deputatı Azay Quliyev Yeni Azərbaycan Partiyasının Binəqədi rayon təşkilatının inzibati binasında seçicilərini qəbul edib.**



Deputat seçicilərin sosial, məşğulluq, əmək, mənzil və əmlak məsələləri ilə əlaqədar müraciət və şikayətlərini dinləyib. Görüşdə qaldırılan məsələlərin bəziləri yerindəcə həllini tapıb. Digər müraciətlərin həlli ilə bağlı isə müvafiq qərarlar qəbul olunub.

Qeyd edək ki, qəbulda Binəqədi Rayon İcra Hakimiyyətinin və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndələri də iştirak edib.

Xatırladırıq ki, Azay Quliyevin rəsmi internet səhifəsində seçicilərin qəbulu üçün onlayn qeydiyyat sistemi (http://azayguliyev.az/qebul.php) fəaliyyət göstərir. 8 saylı Binəqədi birinci seçki dairəsinin seçiciləri elektron müraciət imkanından yararlanaraq deputatın qəbuluna yazıla bilərlər.

# Azərbaycanda 5 regional “ASAN Xidmət” mərkəzi fəaliyyətə başlayacaq

**“Bu ilin sonuna yaxın daha 5 regional "ASAN Xidmət" mərkəzi fəaliyyətə başlayacaq".**




Bunu APA-ya açıqlamasında Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev bildirib.

Onun sözlərinə görə, bu mərkəzlər Şamaxı, Balakən, Kürdəmir, Tovuz və Ağcabədidə fəaliyyət göstərəcək: “Eyni zamanda prezident İlham Əliyevin tapşırığı ilə Bakıda da növbəti iki mərkəz açılmalıdır. Bununla bağlı işlər gedir, gələn il ərzində bu mərkəzlər də fəaliyyətə başlayacaq”.

YENİ MÜSAVAT
N 137 (7307) 29 iyun 2019

# Rusiya səfirliyinin nümayəndəsi Azərbaycan XİN-ə çağırıldı - səbəb

## Paşinyan hakimiyyəti ilə Qarabağ klanı arasında gərginlik fonunda rus diplomatın anlaşılmaz mövqeyi Bakının etirazına səbəb oldu; ekspertlər deyirlər ki...

**Ermənistan hakimiyyəti ilə Qarabağ klanı arasındakı gərginlik davam edir. Bəzi müşahidəçilər hesab edir ki, Paşinyan hökuməti diqqəti daxildəki narazılıqlardan yayındırmaq üçün növbəti ssenarini qurub. Son məlumata görə, Ermənistanın bölgə administrasiyalarındakı mümkün ştat ixtisarı ucbatından əməkdaşlar arasında narazılıq artıb.**

Bu məlumatı "Past" qəzeti yayıb (Axar.az). Məlumata görə, artıq administrasiyaların əməkdaşlarına bununla bağlı xəbərdarlıq edilib. Qəzet ixtisarların administrasiyalardakı ən təcrübəli işçilərə də aid ediləcəyini yazıb. Bu isə məmurlar arasında kəskin narazılıq formalaşdırıb. Paşinyan Qarabağ klanının hakimiyyət daxilindəki qalıqlarını təmizləməkdə israrlıdır. Lakin bu da var ki, Robert Köçəryanın son on ayda üçüncü dəfə həbs edilməsi həm də Rusiyaya dirənişin elementi kimi yozulur. Bəzi müşahidəçilər "Putinin dostu"nun gözümçıxdıya salınmasının arxasında başqa niyyətlərin olduğunu güman edirlər. Hesab olunur ki, Paşinyan payızda Ermənistana səfəri gözlənilən Putini hansısa güzəştlərə sövq etməkdən ötrü Köçəryanı o vaxtadək həbsdə saxlamağa çalışacaq. Hətta həbsdə olduğu zaman R.Köçəryana təbrik yollayan Putinin budəfəki sükutu isə müəmmalıdır.

**Erməni̇şünas alim, politoloq Qafar Çaxmaqlı "Yeni Müsavat"a bildirdi ki, Köçəryanın "Putinin dostu" adlandırılması doğru deyil:** "Köçəryan Rusiya imperiyasının maraqlarını həm Dağlıq Qarabağda, həm də Ermənistanda təmin edən fiqur olub və missiyasını başa çatdırıb, bu sədaqətinə görə əbədi toxunulmaz qalacağı anlamına gəlməz. Köçəryandan sonra gələn separatçı liderlər - Qukasyan və Saakyanın müraciətlərinin lazımsız kağız parçası kimi bir tərəfə atılması da göstərdi ki, Rusiya heç kimi axıra qədər müdafiə etmir. Necə deyərlər, "Moskva göz yaşlarına inanmır". Mən dəfələrlə qeyd etmişəm ki, Rusiya ola bilsin, ilk zamanlarda Paşinyanı istəmirdi. Amma hadisələrin gedişində onunla işləmək Putinə daha maraqlı gəldi və indi Rusiya üçün İrəvanın sükanının kimin əlində olmasının heç fərqi yoxdur. Rusiya üçün də törədilən bir çox cinayətlərin bir suçlusu nəhayət ki, olmalıdır".

**Q.Çaxmaqlı Moskvadan eks-prezidentə verilən dəstəyi də maraqlı arqumentlərlə əsaslandırdı:** "Köçəryanı indiyəcən ona görə müdafiə edirdilər ki, 1999-cu ilin 27 oktyabr parlament güllələbaranı barədə onun dilindən "quş" buraxılmasından ehtiyat edirdilər. Köçəryan bu işdə Rusiyanın barmağının olduğunu sədaqətlə gizlədə bilmişdi. 1 mart 2008-ə görə isə canı çıxsın, cavab versin. O, bu cinayətdə Rusiyanın birbaşa tapşırığı olduğunu desə, kimsə inanmaz. Həm də son ittihamlara korrupsiya və rüşvətxorluq maddələri də əlavə olunub. İkinci tərəfdən, artıq Rusiya "dişinə vurduğu" Paşinyanın hakimiyyətini möhkəmləndirməlidir. Nəyin hesabına? Ona belə kiçik də olsa, qələbələr verilməlidir. Gərginliyin olması isə Rusiyanın ürəyincədir. Onun daha uzun davam etməsi və hətta Dağlıq Qarabağ - Ermənistan qarşıdurması fikrini təlqin edib Azərbaycanın da başını bir müddət qatmaq vasitəsidir. Rusiyaya bu bölgədə sülh deyil, münaqişə lazımdır. O da artıq 30 ilə yaxındır davam edir".



**Belə bir durumun Qarabağ məsələsinin həllinə nə vəd etdiyinə gəldikdə, Q.Çaxmaqlı qeyd etdi ki, danışıqlardan heç bir yeni durum gözlənilmir:** "Köçəryanın "Paşinyan Qarabağ yükündən azad olmaq istəyir" fikri də ironiya ilə deyilmiş ifadədir. Ermənistan Qarabağdan vaz keçməz və bunu etmək cəhdi də yoxdur".

Bu arada rusiyalı diplomatın davranışı Azərbaycanda narazılıqla qarşılanıb. Rusiyanın Azərbaycandakı səfirliyinin nümayəndəsi Rusiyanın Ermənistandakı səfirinin üzdəniraq "Ermənistan-Qarabağ strateji ittifaqı" forumunun təşkilat komitəsinin nümayəndələri ilə görüşləri barədə məlumata aydınlıq gətirilməsi üçün Azərbaycan Xarici İşlər Nazirliyinə çağırılıb. Bu barədə Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva məlumat yayıb.

Xatırladaq ki, Ermənistan mətbuatının verdiyi məlumata görə, iyunun 26-da üzdəniraq "Ermənistan-Qarabağ strateji İttifaqı" forumunun təşkilat komitəsinin nümayəndələri Armen Rustamyan, David Şahnazaryan və Geqam Nazaryan Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkinlə görüşərək səfirlə Qarabağ məsələsi haqda geniş söhbət aparıb, ona mayın 7-də işğal altındakı Xankəndində keçirilmiş təxribatçı forumun yekun qətnaməsini təqdim ediblər.

Müəmmalı vəziyyət yaranıb, Rusiya həm Qərbin oyuncağı olan Paşinyan hakimiyyətindən narazıdır, həm də özünün yaxın qonşusu və müttəfiqini - Azərbaycanı narazı salan davranışlar sərgiləyir.

**Politoloq Arzu Nağıyev bu haqda danışarkən bildirdi ki, Rusiyanın Paşinyana münasibətinin pis olması heç də Ermənistanla münasibətin pis olması demək deyil:** "Məsələyə bu prizmadan yanaşmaq lazımdır. Rusiya və Ermənistan hərbi müttəfiqdirlər və bunu gizlətmirlər. Demək olar ki, Paşinyan hər bir atdığı siyasi addımı Rusiya ilə razılaşdırır və hətta təlimatlar alır. Sanki baş verənlər Rusiyanın ssenarisi əsasında həyata keçirilir. Bu, Köçəryanın həbsindən tutmuş, Xaçaturovun vəzifədən çıxarılmasına qədər bütün məsələlərdə özünü göstərir. Dağlıq Qarabağ separatçıları ilə guya ki, dərinləşən qarşıdurmanı da bura əlavə etsək, görərik ki, hər yerdə Rusiyanın dəsti-xətti var".

**A.Nağıyevin fikrincə, xarici siyasəti dönməz dövlətlər var ki, bunlardan biri də Rusiyadır:** "Hakimiyyətdə istər Paşinyan olsun, istər Sərkisyan, əsas məsələ Ermənistanla anlaşmaqdır. Məsələyə bu prizmadan yanaşmaq lazımdır. Rusiya və Ermənistan hərbi müttəfiqdirlər və bunu gizlətmirlər. Hətta Putinlə dostluq əlaqəsi olduğu deyilən Köçəryan artıq cinayət məcəlləsinin ən ağır iki maddəsi ilə həbsdədir. Yəni Rusiya istədiyi vaxt kimi istəsə, öz məqsədi naminə "xərcləyə" bilər".

**Qarabağda hərbi əməliyyatlara başladığımız halda, Rusiya Ermənistanı himayə edə bilərmi?** Politoloq: "İnandırıcı deyil ki, hərbi əməliyyatlarda Rusiya ilə qarşıdurma olsun. Rusiya çalışır ki, hərbi əməliyyatlar olmasın, çünki bu ondan da yan keçməyəcək. Ən azından 102-ci baza və onun ermənilərə, hətta separatçılara verdiyi silahlar var. Bu da üzə çıxsa, Rusiyanın onsuz da tənəzzülə uğrayan nüfuzu bir az da azala bilər. Ən maraqlısı da odur ki, Rusiya ATƏT-in Minsk Qrupunun üzvü və mühüm fiqur, özü də açar fiqur olduğu halda, belə addımlar atır. Danışıqlara rəhbərlik edən şəxs daima ermənilərin müdafiəçisi olub və deklorativ bəyanatlarla bütün danışıqları, necə deyərlər, yola verib. Buna görə də format dəyişməlidir. Yəni Rusiya Xarici İşlər Nazirliyi münaqişənin həllində maraqlı olmalı və ikili mövqedən çıxış etməməlidir".

❑ **Cavid TURAN,**
**"Yeni Müsavat"**



# Elvin İbrahimov Azərbaycana, Zaven Karapetyan isə Ermənistana təhvil verildi

## AŞ PA-da isə Dilqəm Əsgərov və Şahbaz Quliyevlə bağlı tədbirin yekununda bəyanat qəbul olundu

**Ermənistanda saxlanılan azərbaycanlı Elvin İbrahimov Azərbaycana qaytarılıb.**

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından APA-ya bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq tapşırığına uyğun olaraq, Dövlət Komissiyası tərəfindən Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə aparılmış danışıqlar nəticəsində əldə edilmiş razılığa əsasən, 16 mart 2019-cu il tarixdə Ermənistan hərbçiləri tərəfindən girov götürülmüş Azərbaycan Respublikasının vətəndaşı, Qazax rayonu, Yuxarı Salahlı kənd sakini, 29.10.1986-cı il təvəllüdlü İbrahimov Elvin Arif oğlu və 20 iyun 2017-ci il tarixdə Qazax rayonu ərazisində saxlanılmış Ermənistan Respublikasının vətəndaşı, 06.11.1974-cü il təvəllüdlü Karapetyan Zaven Avanesoviç 28 iyun 2019-cu il tarixdə müvafiq olaraq tərəflərə təhvil verilib.

Humanitar proses Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və Dövlət Sərhəd Xidməti tərəfindən Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə həyata keçirilib.



Girov götürülərkən Ermənistan hərbçiləri tərəfindən açılmış atəş nəticəsində yaralandığı, həmçinin girovluqda saxlanılarkən bir neçə dəfə cərrahi əməliyyata məruz qaldığı üçün Elvin İbrahimov təcili olaraq xəstəxanaya yerləşdirilib.

Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) də Azərbaycan və Ermənistan vətəndaşlarının qaytarılması ilə bağlı məlumat yayıb.

BQXK-dan APA-ya verilən məlumatda qeyd olunur ki, təhvilvermə beynəlxalq sərhəddə - Ermənistanın İcevan və Azərbaycanın Qazax şəhərləri arasındakı yolda baş tutub. Azərbaycan vətəndaşı 16 mart 2019-cu il tarixində beynəlxalq sərhəddən Ermənistana, Ermənistan vətəndaşı isə 20 iyun 2017-ci il tarixində beynəlxalq sərhəddən Azərbaycana keçib.

BQXK neytral vasitəçi qismində və öz mandatına uyğun olaraq, Azərbaycan və Ermənistan hakimiyyət orqanları ilə birgə bu repatriasiyanın keçirilməsinə yardımçı olub.

BQXK saxlandığı dövr ərzində və eləcə də öz ölkələrinə təhvilvermədən əvvəl həmin şəxslərə mütəmadi olaraq baş çəkərək onların saxlanma şəraitini və onlarla necə davranıldığını qiymətləndirib.

Cenevrə konvensiyalarına əsaslanan mandatına uyğun olaraq BQXK Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 1992-ci ildən bəri bu regionda humanitar fəaliyyət göstərir.

Bu arada AŞ PA Dilqəm Əsgərov və Şahbaz Quliyevla bağlı bəyanat verib.

"İki azərbaycanlı mülki şəxsin humanitar məsələsi: Dilqəm Əsgərov və Şahbaz Quliyev" adlı tədbirin yekunu olaraq AŞ PA-da azərbaycanlı girovlar Dilqəm Əsəgərov və Şahbaz Quliyevlə bağlı bəyanat qəbul olunub.

APA-nın AŞ PA-nın rəsmi saytına istinadən verdiyi xəbərə görə, bəyanat tədbirdə iştirak edən yerli və digər ölkələrdən olan parlamentarilər tərəfindən imzalanıb.

Bəyanatda vurğulanır ki, iyulun 11-də Azərbaycan vətəndaşları Dilqəm Əsgərov və Şahbaz Quliyevin Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonu yaxınlığında qohumlarının qəbirlərini ziyarət edərkən girov götürülməsinin beş ili tamam olacaq. Həmçinin bu günədək onların azad edilməsi ilə bağlı bütün çağırışların rədd edilməsindən narahatlıq ifadə olunur. Bəyanatda iki azərbaycanlı girovun pozulmuş hüquqlarını bərpa etmək məqsədilə onların dərhal və qeyd-şərtsiz azad edilmələrini təmin etmək üçün Avropa Şurasının baş katibinə, AŞ PA-ya və qurumun İnsan Hüquqları üzrə Müvəkkilinə çağırış edilir.

Həmçinin bəyanatı imzalayanlar Avropa İnsan Haqları Məhkəməsinin onların azad edilməsi ilə bağlı qərarını səbirsizliklə gözlədiklərini vurğulayır.

YENİ MÜSAVAT
N 137 (7307) 29 iyun 2019

# Deputatdan iqtisadiyyatımızla bağlı önəmli təkliflər, ilginc şərhlər

## Əli Məsimli: "Ərazisi bizdən iki dəfə kiçik olan Hollandiya innovasion əsaslarla qurduğu kənd təsərrüfatı üzrə ildə 102-103 milyard dollarlıq məhsul ixrac edir"

**Cari ilin birinci yarısında dövlət başçısının əhalinin sosial durumunun yaxşılaşdırılması ilə bağlı atdığı addımlar təqdir olunur. Eyni zamanda bir sıra ekspertlər hesab edir ki, dövlətin yükünü azaltmaqdan ötrü paralel addımların atılması vacibdir. Konkretləşdirsək, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması, rəqabət mühitinin yaradılması, yeni iş yerlərinin açılması, istehsal müəssisələrinə yaşıl işığın yandırılması, bu istiqamətdə əngəllərin aradan qaldırılması kimi. Prezidentin də mövqeyi və verdiyi qərarlar məhz bu addımların atılmasına istiqamətlənib. Bəs bu sahənin mütəxəssisləri necə hesab edir, hansı işlər həyata keçirilməlidir ki, dövlət başçısının təqdim etdiyi yol xəritəsinə uyğun işlər reallaşsın? Deputat, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Əli Məsimli bununla bağlı "Yeni Müsavat"a konkret təklifləri açıqladı.**

"Biz "Üç amil" - insan kapitalı-sərvət-inteqrasiya - prinsipinə əsaslanan optimal inkişaf modelinin reallaşdırılmasına dair təkliflər paketi hazırlamış və hələ 2 il bundan əvvəl onun birinci hissəsini Nazirlər Kabinetinə göndərmişik. Təbii ki, onun bütün cəhətlərini bir suala cavab çərçivəsində açmaq mümkünsüzdür. Amma əsas məqamlarını deyə bilərik: Təklif etdiyimiz yeni inkişaf modelinin hərəkətverici qüvvəsi neft, qaz yox, eləcə də neftdən sonra yalnız kənd təsərrüfatı və onun xammalı əsasında yüngül və yeyinti sənayesini inkişaf etdirməkdir. Və Azərbaycan tranzit ölkə imkanlarından faydalanmaqla gəlir götürməklə kifayətlənməsi yox, neft gəlirlərindən də səmərəli istifadə etməklə Azərbaycanda güclü intellektual bazaya, müasir biliklərə və səriştəyə əsaslanan yeni tipli iqtisadi sistemin formalaşdırılmasıdır. Həmçinin elmtutumlu istehsal sahələrinin inkişafı yolu ilə milli iqtisadiyyatın neft amilindən asılılığının azaldılması, bilik, savad, səriştə dəyərlər sisteminin effektiv kombinasiyasından qaynaqlanan istehsal mədəniyyətinə, innovasiyalara hədəflənmiş Yeni Azərbaycan quruculuğu məqsədi dayanır".

**Ə.Məsimli bildirdi ki, Azərbaycan iqtisadiyyatında optimal inkişaf modelinin formalaşması və reallaşdırılmasının əsasları bunlardır:** "**1.** Optimal inkişaf modelinin reallaşdırılması tələblərinə uyğun olaraq Azərbaycan iqtisadiyyatında və cəmiyyət həyatının bütün sahələrində hüququn aliliyinə və iqtisadi azadlıqlara yönəlik əsaslı islahatlara davamlı xarakter verilməsi. Bazar mexanizminin səmərəli fəaliyyət göstərməsinin institusional əsaslarının inkişaf etdirilməsi, insan və mülkiyyət hüquqnun konstitusion əsaslarla müdafiəsinin tam təmin edilməsi istiqamətində fundamental islahatların həyata keçirilməsi.

**2.** İqtisadiyyatın idarə edilməsi və tənzimlənməsinin elmiliyinin, innovativliyinin və kreativliyinin artırılması. Dövlətin iqtisadiyyatdakı rolunun optimallaşdırılması. İdarəetmə sisteminin təşkilati strukturu, kadr tərkibi və koordinasiyasının optimallaşdırılması.

**3.** Korrupsiya, inhisarçılıq, məmur özbaşınalıqlarının və bunlardan doğan çoxsaylı neqativlərin aradan qaldırılması istiqamətində başlanan işlərin genişləndirilməsi və sürətləndirilməsi.

**4.** Biznesdə məmur sahibkarlığının, məmur himayədarlığının aradan qaldırılması.

**5.** Struktur islahatları vasitəsilə dövlətin, cəmiyyətin, biznesin və qabaqcıl texnologiyanın səmərəli kombinasiyasına nail olunması.

**6.** İqtisadi siyasətdə strateji xətt kimi əsas gücün yeni texnika və texnologiyaya əsaslanan fundamental struktur islahatlarının həyata keçirilməsinə verilməsi və keyfiyyətcə yeni inkişaf mərhələsinə keçidin sürətləndirilməsi. İqtisadiyyatın real sektorunun keyfiyyətli təhsil, elm və səriştə, bilik iqtisadiyyatı ilə sıx əlaqəsinin təmin edilməsi.

**7.** Müasir mərhələdə alternativi olmayan insan kapitalının üstün inkişafına dayanan innovasiyalı inkişaf modelinin reallaşdırılması, yeni yaradılan dəyərin bölgüsündə ədalətin təmin edilməsi istiqamətində bu ildən başlayaraq atılan addımların davam etdirilməsi".

**Deputatın sözlərinə görə, bir sıra ölkələrin təcrübəsi göstərir ki, həqiqi və etibarlı iqtisadi və sosial yüksəlişə və tərəqqiyə neftin, qazın, qızılın, gümüşün və digər təbii sərvətlərin zənginliyi ilə deyil, elmdə, innovasiyalarda və elmi texnologiyalarda üstünlük əldə etmək yolu ilə nail olmaq mümkündür:** "Təklif etdiyimiz yeni iqtisadi modelə uyğun surətdə Azərbaycanda neft amilinin aparıcı roluna əsaslanan iqtisadi inkişaf modelindən insan inkişafının prioritet təşkil etdiyi modelə keçilməsi üçün nəzərdə tutulan həmin tədbirlərin sistemli şəkildə həyata keçirilməsi ilə 2020-ci ildən iqtisadiyyatımızın rəsmi hökumət proqnozlarındakından 2 dəfə sürətli - 6 faiz və ondan yüksək artım trayektoriyasına çıxa, maliyyə sisteminin səmərəli fəaliyyətini və bu əsasda orta perspektivdə əhalinin bütün təbəqələrinin layiqli həyat



**"Həmin 100 mindən çox müəssisənin 1000-ni eksportyönlü qura bilsəydik və çox demirəm, hərəsi ildə cəmi 5 milyon dollarlıq məhsul ixrac etsəydi, indi qeyri-neft sektorunun ixracı 1,7 milyard dollar yox, 7 milyard dollar olardı"**

səviyyəsi təmin edilə bilər. Bundan ötrü Azərbaycan iqtisadiyyatında artımın keyfiyyətinin və həyat səviyyəsinin ölkənin potensialına uyğunlaşdırılması istiqamətində 2019-cu ildən başlanan islahat xarakterli tədbirlər davam etdirilməlidir".

**Bəs ölkəmizi neft asılılığından xilas edib aqrar ölkəyə çevirmək mümkündürmü? Ə.Məsimli:** "Ölkəni neft asılılığından xilas edib aqrar ölkəyə çevirmək mümkün olsa belə, sözün dar mənasında buna getmək məqsədəuyğun deyil. Çünki ümumi rifah və rəqabətqabiliyyətli dövlətə çevrilmək üçün Azərbaycanın timsalında bu model yetərli deyil. Son illər Azərbaycanda aqrar sahədə istər istehsal (xüsusən də bitkiçilik məhsulları), istərsə də ixrac kifayət qədər yüksək templərlə artır. Kənd təsərrüfatı məhsullarının ixrac coğrafiyası da genişlənir. 2018-ci ildə 560 milyon dollar məbləğində kənd təsərrüfatı məhsulları ixrac edilib ki, bu da 2016-cı ilin göstəricisindən 40 % çox, 2017-ci ilin göstəricisi ilə isə təqribən eynidir. Bununla belə, hələlik ölkəmizdə kənd təsərrüfatı məhsullarının ixracı ümumi ixracımızın 2017-ci ildə cəmi 3 faizə yaxınını təşkil edib ki, bu da mövcud potensialdan qat-qat aşağıdır. Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı və ixrac potensialı çoxşaxəlidir. Ona görə də kənd təsərrüfatının yeni əsaslar üzərində yenidən qurulması, həmin potensialdan istifadənin səmərəliliyinin və yerli tələbatın ödənilməsində rolunun artırılması, əhalinin bu sahənin məhsulları ilə təminatının yaxşılaşdırılması, eləcə də kənd təsərrüfatının neftdən sonra ixracımızın vacib sahələrindən birinə çevrilməsi günün tələbindən doğan zərurətə çevrilib. Bu gedişlə neft və qaz bundan sonra da hələ xeyli müddət Azərbaycana ən çox valyuta gətirən sahə olaraq qalacaq. Bununla belə, son illər qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi üçün zəruri işlər görülür".

**Ə.Məsimli dedi ki, ərazisi bizdən iki dəfə kiçik olan Hollandiya innovasion əsaslarda qurduğu kənd təsərrüfatı üzrə ildə 102-103 milyard dollarlıq kənd təsərrüfatı məhsulu ixrac edir ki, bu da Azərbaycanın 2018-ci ildə neft-qaz ixracının göstəricisindən 6 dəfə çoxdur:** "Təbii ki, biz aqrar sahənin eksportunu 102-103 milyard dollara çatdıra bilmərik, amma bu qədər potensialımız müqabilində 560 milyon dollar səviyyəsindən heç olmasa 2-3 milyard dollara catdırmaq imkanlarımız daxilində olduğundan, həm də çox vacib bir vəzifəmizdir. Bundan ötrü "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə öz əksini tapmış tədbir və məqamları da nəzərə almaqla Azərbaycanda güclü aqrar-sənaye komplekslərinin yaradılması üzrə konkret mərhələlərə, istiqamət və sahələrə bölünmüş uzunmüddətli strategiyanın və xüsusi dövlət proqramının, o cümlədən onun ayrı-ayrı komponentlərinin inkişafının sürətləndirilməsinə yönəlik stimullaşdırıcı proqramlar və tədbirlər paketi hazırlayıb, optimal müddətdə həyata keçirilməsi təmin edilməlidir ki, həm yerli tələbatı yüksək səviyyədə təmin edə bilək, həm də xaricə ilk mərhələdə 2-3 milyard dollarlıq, sonradan daha çox kənd təsərrüfatı məhsulu çıxara bilək".

**Deməli, iqtisadiyyatımızın neftdən asılılığını zəiflətməkdən ötrü kənd təsərrüfatı ilə yanaşı, qeyri-neft sektorunun digər sahələrinin inkişafına da nail olmaq lazımdır. "Bəli. Son 15 ildə Azərbaycan iqtisadiyyatına 260 milyard dollar sərmayə qoyulub, 100 mindən çox müəssisə yaradılıb" - deyə deputat qeyd etdi:** "Bərabər bölgü prinsipi ilə yanaşsaq, bu, hər rayonda 1500-dən artıq müəssisənin yaradılması deməkdir. Həmin 100 mindən çox müəssisənin 99 faizini bir kənara qoyaq, cəmi 1 faizini, yəni 1000-ni eksportyönlü qura bilsəydik və çox demirəm, hərəsi ildə cəmi 5 milyon dollarlıq məhsul ixrac etsəydi, indi qeyri-neft sektorunun ixracı 1,7 milyard dollar yox, 7 milyard dollar olardı. Bu da bir mənbədən valyuta daxilolması probleminin fəsadlarını köklü surətdə aradan qaldırmaqla yanaşı, həm də manatı həmişəlik dünya bazarında neftin qiymət konyukturunun asılılığından xilas edərdi. Ona görə də idxalı əvəz edən və eksportyönlü normal fəaliyyət göstərə bilən müəssisələrin yaradılması işlərinin sürətləndirilməsini, əlavə stimullaşdırıcı tədbirlərin görülməsini və bu sahədəki xüsusən də regionlarda maneələrin aradan qaldırılmasını zəruri hesab edirik. Bu həm də rayonlarda iqtisadi fəallığı, eləcə də yüksək maaşlı iş yerlərinin sayını əhəmiyyətli dərəcədə artıracaq".

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 137 (7307) 29 iyun 2019



# Dünyanın ən çox pul xərcləyən milyarderi...

Xalid KAZIMLI

## O, öz əyin-başına almır, kasıb ölkələrə, fondlara ianə verir

**Əslində söhbət kiminsə bahalı şərab içməsində, lüks avtomobildə ötüşərək faciəvi qəza törətməsində, qoluna fantastik qiymətə alınan saatlar taxmasında, qızıl saplarla işlənmiş, düymələrinə alıcının inisialı həkk olunmuş 15 min dollarlıq köynəklər geyməsində, 3 min manatlıq təzə xəz paltonu bahalı avtomobilinin kapotuna sürtüb ayaq altına atmasında, barda 100 min dollarlıq şampan qonaqlığı verməsində və sair və ilaxır harınlıqlar, qudurğanlıqlar sərgiləməsində deyil. Məsələ bu kimi qudurğanlıqların oğurluq pullarla edilməsindədir.**

Məsələ həm də həmin oğurluq pulların naməlum birindən çırpışdırılmasında deyil, qarət hədəfinin bəlli olmasında, bunun dövlət büdcəsi, xalqın cibi olmasındadır. Yoxsa kriminal avtoritetlərin hansısa oğru milyonçunun evini qarət etdirməsi xalqı o qədər də əndişələndirmir.

Xalqı narahat edən dövlətdən, millətdən qarət edilmiş pulların fantastik məbləği və bu məbləğdə özünün də payı olduğunu dərk etməsidir.

Belə vaqiələrdə ajiotaj məhz buna görə şiddətli olur və kollektivlərdə, xeyir-şər məclislərində, hər yerdə geniş ictimai müzakirənin predmetinə çevrilir.

Yoxsa Amerikada da, Avropada da bahalı maşınlar sürməyi, qiyməti bir neçə yüz min dolları aşan aksessuarlar taxmağı sevən adamlar var və bu, sadəcə, şou-biznes sayt və dərgilərinin diqqətində olan şeylərdir, daha ölkənin ciddi mediası, ictimai-siyasi səciyyəli xəbərlər, şərhlər yayan qəzet və saytları o barədə yazmır.

Məsələn, futbolçu Ronaldonun, Messinin sürdüyü bahalı maşınlar barədə ciddi media heç nə yazmaz, bundan yalnız sarı mətbuat bəhs edər və heç kəs adı çəkilən məşhurları qınamaz. Çünki onların hansı bahalıqda avtomobil sürmələrinin xalqa, vergi verənlərə dəxli yoxdur. Hamı bilir ki, bu adamlar ildə 30-40 milyon dollar pul qazanırlar və dövlət büdcəsinə kifayət qədər vergi ödəyirlər, sürdükləri bahalı maşınlar, aldıqları bahalı villalar onların halal qazanclarının məhsuludur.

Tez-tez bu cür adamların barəsində vergidənyayınma cinayəti ilə bağlı işlər açılır, qalmaqallar yaranır. Bəzən iddialar haqlı, bəzən haqsız olur. Ortaya çıxır ki, adamların fantastik pullar qazanması vergi orqanlarının o qədər şirnikləndirib ki, onlar həmin məşhurlardan lazım olduğundan da artıq vergi qoparmaq istəyirlər.

Hər halda, bu təcrübə onu göstərir ki, hüququn aliliyinin təmin olunduğu ölkələrdə qazanılan, toplanılan, xərclənən pulların hamısına nəzarət olunur. Kimsə "çirkli pul" yumaq istəyəndə, həddindən artıq bahalı əmtəə, mülk, inventar alanda sərf etdiyi vəsaitin qaynağını göstərməlidir, onun cinayət yoluyla əldə edilmədiyini sübut etməlidir.

Belə mexanizmlər olan yerdə bir çoxları istəsələr belə harınlıq, qudurğanlıq edə bilməzlər, edən kimi dİlə-dişə düşərlər, vergi orqanlarının, auditorların təftişinə məruz qalarlar, medianın ağzında saqqıza dönərlər və çox şey itirərlər.

Ümumiyyətlə, Avropa ölkələrinin varlıları artıq çoxdan varidat nümayişindən vaz keçiblər, malik olduqları bahalı əşyalarla hər kəsin önündə lovğalanmaqdan imtina ediblər. Çoxu sadə həyat tərzi keçirdiyini, dünya malında gözü olmadığını göstərməyə çalışır. İndi "kim daha çox xeyriyyəçilik edir, xeyriyyə fondlarına, kasıb ölkələrə ianələr verir" yarışması gedir.

İllərdir dünya üzrə xeyriyyəçilik hərəkatının başında amerikalı milyarder Bill Qeyts gəlir. Təxminən 90 milyard dollarlıq varidatın sahibi olan biznesmen hər il kasıb ölkələrə, xeyriyyə fondlarına, eləcə də elm və texnikanın, təhsil və səhiyyənin inkişafına çalışan elmi mərkəzlərə, institutlara bir neçə milyard dollar həcmində pul vəsaitləri köçürür. Özü isə cəmi-cümlətanı 10 dollarlıq saat taxır.

Əlbəttə, o istəsə qoluna 1 milyard dollarlıq saat taxar, amma adam belə şeylərlə lovğalanacaq qədər cılız deyil. Elə dünyanın ən bahalı malikanəsinin, dünyanın ən bahalı yaxtasının, dünyanın ən bahalı təyyarəsinin sahibi də Bill Qeyts yox, başqalarıdır. Amma Bill Qeyts dünyanın ən çox ianə verən, ən çox məmnuniyyət yaradan və ən çox alqış qazanan adamıdır.

Keşkə dünyanın bütün varlıları cənab Qeyts kimi olaydı - onun qədər varlı, onun qədər gözütox və onun qədər səxavətli. Elə olsa, dünyada kasıblar və varlılar arasında bunca dərin uçurum olmazdı.

# "Gəncə hadisələrindən düşmən güclər istifadə edə bilərdi" - ekspert

## Sabiq təhlükəsizlik zabiti Elmar Vəliyevin vurulması və Gəncə işinin 1 ilini təhlil etdi: "Dövlətin əleyhinə müəyyən işlər görülməsi cəhdi istisna deyildi"

**İyulun 3-də Gəncə hadisələrinin bir ili tamam olur. Ötən ilin bu günlərində kimsənin ağlına gəlməzdi ki, Gəncənin icra başçısı Elmar Vəliyevə atəş açılacaq.**



Bu hadisə elə bir günə təsadüf eləmişdi ki, Mingəçevirdə ölkənin ən böyük elektrik stansiyası olan Azərbaycan İES-in 6-cı enerji blokunda partlayış baş vermişdi.

Ölkənin zülmətə qərq olduğu vaxtda E.Vəliyevə Gəncə İH-in qarşısında sui-qəsd edildi və cinayəti törədən Yunis Səfərov dərhal həbs olundu.

"Yeni Müsavat" xatırladır ki, ölkədə böyük səs-küy doğuran hadisənin ardınca sosial şəbəkələr üzərindən Gəncənin mərkəzinə mitinq təyin olundu. Tələb E.Vəliyevin Gəncəni tərk eləməsi idi.



İyulun 10-da meydanda asayişi təmin edərkən iki polis polkovniki xəncərlə qətlə yetirildi. Gəncə Şəhər Baş Polis İdarəsinin rəis müavini, polkovnik İlqar Balakişiyev və Nizami Rayon Polis İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı Səməd Abbasov radikal ünsürlərin kəsici-deşici alətlərlə yetirdikləri zərbələr nəticəsində həlak oldular.

**Sabiq təhlükəsizlik zabiti, təhlükəsizlik məsələləri üzrə ekspert İlham İsmayıl** "Yeni Müsavat"a bildirdi ki, Gəncə hadisələri bir nəfərin kobud idarəçiliyinə, məmur özbaşınalığına etiraz olsa da, hadisədən sonrakı proseslər qlobal xarakter daşıyırdı, həm xaricdə, həm daxildə düşmən güclər vəziyyətdən yararlana bilərdi: "Üstəlik, hakimiyyətin yox, dövlətin əleyhinə müəyyən işlər görülə bilərdi".

**Sabiq MTN polkovniki Gəncə hadisəsində müəyyən güclərin xəbərdarlıq mesajı verməsini istisna etmir:** "2009-cu ildə Neft Akademiyasındakı terror da xəbərdarlıq idi. Lakin Gəncədəki hadisələr kütləvi iğtişaşa çevrilmədi.

Mingəçevirdə enerji blokunun partlayışının mümkündür ki, Gəncədəki hadisə ilə bağlantıları var. Çünki respublikada enerji problemi yaranır, hamının narazılığı üzə çıxır. Və Gəncə kimi bir yerdə başçı vurulur. Gəncə elə-belə yer deyil. Amma bu iki hadisə arasında birbaşa bağlılıq olduğunu tam olaraq deyə bilmərəm.

Əvvəla, kütləvi narazılıq yaradacaq obyektlərdə gərək yeyinti olmasın. Araşdırmalar ortaya çıxardı ki, nöqsanlar olub, yeyintilərə yol verilib və heç kəs tamahına sədd çəkməyib. Gərək imkan verilməsin ki, bundan istifadə edib camaatı ayağa qaldırsınlar".

Qeyd edək ki, hazırda Sabunçu məhkəməsində Gəncə hadisələri ilə bağlı 4 cinayət işi üzrə proses aparılır.

Həmin məhkəmə dinləmələrinin heç biri birbaşa E.Vəliyevə sui-qəsdlə əlaqəli deyil. Sabiq icra başçısına qarşı sui-qəsdlə bağlı prosesin nə vaxt başlanacağı da hələlik bəlli deyil.

Baş prokuror Zakir Qaralov deyib ki, Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində respublikada böyük ictimai rezonansa səbəb olan bir sıra cinayət işinin istintaqı müvəffəqiyyətlə aparılıb.

Bu işlər sırasında Gəncə Şəhər İcra Hakimiyyətinin başçısına qarşı törədilmiş terror aktı, Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsi, terrorçuluq və sair xüsusilə ağır cinayət əməlləri törətdiklərinə görə istintaq edilən iş üzrə ümumilikdə 29 nəfərin təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində həbs-qətimkan tədbirlərinin seçilməsi təmin edilmiş, həmin şəxslərdən 11-i barəsində beynəlxalq axtarış elan olunmaqla hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Bundan başqa, radikal diniyönümlü bir qrup şəxs tərəfindən Gəncə Şəhər İcra Hakimiyyətinin inzibati binasının qarşısında zorakılıq aktları, hakimiyyət nümayəndələrinə silahlı müqavimət göstərilməsi ilə müşayiət olunan kütləvi iğtişaş törədilməsi, 2 polis əməkdaşının qəsdən öldürülməsi və sair faktlar üzrə ibtidai istintaqı aparılan cinayət işi üzrə 59 nəfər təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barələrində həbs-qətimkan tədbiri seçilib, 1 nəfər barəsində isə həbsli axtarış elan olunub.

Həmin cinayət işinin materiallarından 51 şəxs barəsində 6 cinayət işi ayrıca icraata ayrılaraq aidiyyəti üzrə baxılmaları üçün Gəncə Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Qeyd olunan qanlı olayların Gəncədə planlaşdırılmasını bir çox ekspertlər sabiq icra başçısı Elmar Vəliyevin yerli əhali ilə saymazyana, bir çox hallarda bütün ədəzaləri aşan münasibətindən doğması ilə əlaqələndirirlər. Bu gün isə Gəncədə sabitlik, sakitlikdir.

Yeni icra başçısı Niyazi Bayramov əhali ilə daim təmasdadır, vətəndaşları qəbul edir, problemlərini dinləyir, həllinə tapşırıqlar verir, kimsə qapıdan geri qaytarılmır, əhali tərəfindən onun davranışları, idarəçiliyi təqdir olunur.

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

**İyunun 27-də spiker Oqtay Əsədovun sədrliyi ilə Milli Məclisin növbədənkənar sessiyasının iclası keçirilib. Gündəlikdə duran məsələlərin çoxluğu səbəbindən iyunun 28-də də Milli Məclisin iclasının keçirilməsi öncədən planlaşdırılsa da, 27 iyun iclasında deputatlar fasiləsiz işləyərək 28 iyun iclası üçün də nəzərdə tutulan qanun layihələri, düzəlişlər səsə qoyularaq qəbul edilib. Beləliklə, 28 iyun iclasının keçirilməsinə ehtiyac qalmayıb.**

# Parlamentin bir iclasında 49 məsələnin müzakirəsi və qəbulu necə mümkün olub?

## Tahir Kərimli: “27 iyun iclası ilə bağlı tənqid və iddialar əsassızdır...”



Parlamentin iki iclasının gündəliklərində nəzərdə tutulan 49 məsələnin bir iclasda müzakirə edilib qəbul olunması sosial şəbəkədə və bəzi media orqanlarında tənqidlə qarşılanıb. Bildirilir ki, bir iclasda 49 məsələnin effektli müzakirəsi fiziki cəhətdən mümkün deyil. Milli Məclis bunu mümkün edibsə, deməli gündəlikdəki məsələlərin bir çoxuna müzakirə üçün ümumiyyətlə, vaxt ayrılmayıb.

Milli Məclisin **Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Tahir Kərimli** məsələ ilə bağlı “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, bəzi sosial şəbəkə iştirakçılarının iradları, tənqidləri məsələnin mahiyyətindən xəbərdar olmamaqdan irəli gəlir, Milli Məclis qanunsuzluq etməyib: “Siz mənim xasiyyətimi bilirsiniz, mən ictimaiyyətə heç vaxt yalan danışmaram, ehtiyac yaranarsa, susaram, amma nə deyirəmsə yalan demirəm. Odur ki, mən toxunduğunuz məsələ ilə bağlı olanı deyirəm. Bir sıra insanlar məsələlərə mahiyyətini bilmədən yanaşaraq münasibət bildirirlər. Milli Məclis növbədənkənar sessiya çağırıb. Toplanıb qalan işlərin 90 faizdən çoxu birinci və üçüncü oxunuşdur. İkinci oxunuşda müzakirə olur, birinci və üçüncü oxunuşda isə müzakirə olunmur. Yəni çox az sayda qanun layihələri var ki, müzakirəsi lazım idi. Onlarla bağlı da müzakirələr keçirildi. Şəxsən mən 27 iyunda keçirilən iclasda müzakirəyə çıxarılan üç qanun layihəsi ilə bağlı çıxışlar eləmişəm. Amma gündəlikdəki məsələlərin mütləq əksəriyyəti birinci və üçüncü oxunuş olduğu üçün müzakirələrinə də ehtiyac olmayıb, avtomatik səsə qoyulub. Burada heç bir qanunsuzluqdan söhbət gedə bilməz. Mən özüm də geniş müzakirələr tərəfdarı olmuşam. İstəyirəm ki, qanun layihələri ətraflı müzakirə olunsun. Amma 27 iyun iclası ilə bağlı tənqidlər haqsızlıqdır, iddialar doğru deyil. Çünki hər şey qanun, qaydalara çərçivəsində olub. Heç bir qanunu pozan, Milli Məclisin daxili nizamnaməsini pozan hala yol verilməyib. Sadəcə, qanun layihələrinin mütləq əksəriyyəti köhnədən qalıb təsdiqə ehtiyacı olan layihələr idi və təsdiq olunub. Adam ədalətlə danışar”.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

# Proporsional seçki sisteminin bərpası yenidən gündəmdə

## Onu müxalifət üçün cəlbedici edən nədir? **Sərdar Cəlaloğlu:** “Demokratik ölkələrin mütləq əksəriyyətində yalnız bu seçki sistemi mövcuddur...”



**Gürcüstan parlamentinin 20 müxalifət partiyasının proporsional seçki sisteminə keçid tələbi ilə bağlı istəyini yerinə yetirməsi və 2020-ci ildən parlament seçkilərinin tamamilə proporsional sistem üzrə keçirilməsi qərarını qəbul etməsi Azərbaycan müxalifətini də ölkədə proporsional seçki sisteminin bərpa olunması məsələsini qaldırmasına həvəsləndirib. Bəs proporsional seçki sisteminin majoritar sistemdən üstünlüyü nədədir ki, müxalifət onun bərpasını istəyir?**

Sualımızı cavablandıran ADP sədri **Sərdar Cəlaloğlu** bildirdi ki, proporsional seçki sistemi çoxpartiyalı dövlət sistemini stimullaşdıran əsas şərtlərdən biridir: “Bu seçki sistemi ilə parlamentə seçilən şəxslər bir siyasi komanda kimi dövlət quruculuğunda fəal iştirak edirlər. Komandanın hakimiyyətdə və ya müxalifətdə olmasından asılı olmayaraq, ölkədə islahatların bilavasitə həyata keçirilməsi və ya həyata keçirilməsi təklifləri ilə çıxış etməsi üçün imkanlar əldə olunur. Eyni zamanda siyasi partiyalara cəmiyyətdə ehtiyac daha da artır. Demokratik cəmiyyət quruculuğuna yeni başlayan postsosialist ölkələrində proporsional seçki sistemi tətbiq olunur. Beynəlxalq birliyin də bu sistemi tələb etməsinin səbəblərindən biri çoxpartiyalı sistemin formalaşıb güclənməsində bu seçki sisteminin ciddi əhəmiyyət kəsb etməsi ilə bağlıdır. Demokratik ölkələrin mütləq əksəriyyətində yalnız proporsional seçki sistemi mövcuddur. Azərbaycan ilk növbədə hələ postsovet məkanında və Şərqi Avropa ölkələrinin təcrübəsindən istifadə edərək demokratiyaya doğru inkişafa nail olmağa çalışmalıdır. Postsovet ölkələri dedikdə mən Ukraynanı, Gürcüstanı, Baltikyanı respublikaları nəzərdə tuturam. Proporsional sistem demokratiyanın atributlarından biridir, partiyaların inkişafına stimul verir. Majoritar sistemdə isə partiya inkişaf edə bilmir. Proporsional qaydada seçilmək millət vəkilinə daha çox hüquq verir. Proporsional seçki sistemi həm demokratikləşmənin inkişafı, həm də siyasi inkişaf və partiyaların siyasi həyatda iştirakı baxımından vacibdir. Çoxpartiyalı siyasi sistemlərdə baş aktyor partiyalardır, şəxslər deyil. Majoritar sistemdə isə fərdi keyfiyyətlər əsas götürülür ki, bunun da ümummilli məsələlərə elə də aidiyyəti yoxdur”.

Qeyd edək ki, Azərbaycanda hazırda proporsional seçki sistemi mövcud deyil. Azərbaycan Konstitusiyasına görə, parlament seçkiləri majoritar qaydada keçirilir. Majoritar seçki sistemində ayrı-ayrı dairələrdən namizədliklərini irəli sürənlər səs çoxluğu ilə deputat mandatı qazanırlar. Azərbaycanın müstəqilliyi yenidən elan olunandan sonra proporsional seçki sistemi də tətbiq olunurdu. Amma 2002-ci ilin 29 avqustunda keçirilən referendumla proporsional seçki sistemi ləğv olunub. Bundan sonra parlament seçkilərinin ya tamamilə proporsional, ya da həm majoritar, həm də proporsional qaydada keçirilməsi dəfələrlə təklif olunsa da, reallaşmayıb. Seçki sisteminin dəyişdirilməsi yalnız o halda mümkündür ki, qanunvericilikdə dəyişiklik həyata keçirilsin.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

# Sosial paketlər iqtidarı gücləndirir - müxalifət yeni təbliğat üsulları düşünürmü....



**Əli Əliyev:** “Proses göstərir ki, müxalifət düz yoldadır, sadəcə getdikcə təbliğatı artırmalıyıq”



**Tural Abbaslı:** “Müxalifət öz daxilində yeni liderlər yetişdirib cəmiyyətə təqdim etməlidir”



**Əli Orucov:** “Müxalifətdaxili intriqalar, çəkişmələr, qısqanclıqlar da bu düşərgənin güclənməsinə maneçilik törədir”

**Əhalinin sosial, iqtisadi vəziyyətinin yaxşılaşmasına təkan verən addımlar atılması son zamanlar iqtidarın sosial dayaqlarını bir qədər gücləndirib. Hakimiyyətin mövqelərinin güclənməsi isə təbii ki, müxalifətin marağına uyğun deyil. Balans yaratmaq üçün müxalifətin də öz mövqelərini, dayaqlarını gücləndirmək qayğısı yaranıb. Bəs müxalifət düşərgəsi öz mövqelərini möhkəmlətmək və iqtidara qarşı mübarizədə əlini gücləndirmək üçün nələr edir və ya etməlidir? Ənənəvi mübarizə üsulları, yoxsa yeni taktikaya ehtiyac var?**

**VİP sədri Əli Əliyev** bildirdi ki, iqtidarın mövqelərinin güclənməsi ilə bağlı deyilənləri bölüşmür. Çünki hələlik baş verənlər əhalinin sosial həyatında dəyişiklik yaratmayıb: “Son qərarlar əsasən administrativ strukturları əhatə edir. Minimum əmək haqqı məsələsini nəzərdə tutursunuzsa, o oktyabrdan olacaq. Bu gündən isə qiymətlər qalxmaqda, bazar bahalaşmadadır. Bax, bu gün şəkərin qiyməti qalxıb. Sabah nə isə başqa ərzaq bahalaşacaq. Yəni oktyabrda veriləcək artım artıq indeksasiya olacaq. Bu da mənim yanaşmamdır.

Bizim iddialarımız subyektiv sayıla bilər. Proses göstərir ki, müxalifət düz yoldadır. Sadəcə, getdikcə təbliğatı artırmalıyıq".

**AĞ Partiyanın sədri Tural Abbaslı isə bildirdi ki, son zamanlar hakimiyyət minimum əmək haqlarının qaldırmaq, həmçinin müəllim, hərbçi, polis kimi bəzi peşə sahələrində işləyənlərin də məvaciblərini artırmaqla bəzi sosialyönümlü müsbət addımlar atır:** “Ancaq mən deməzdim ki, bu kampaniya xarakterli addımlar iqtidarın cəmiyyətdəki mövqelərini ciddi şəkildə möhkəmlədir. Bu, ancaq permanent və taktiki addımlar kimi dəyərləndirilə bilər. İqtidar xalqın dəstəyini qazanmaq üçün sosial-iqtisadi, siyasi sferalarda köklü, ardıcıl və sürətli islahatlar aparmalıdır. O ki qaldı müxalifətin yeni metodlardan istifadəsinə, mən düşünürəm ki, burada ”yenidən velosiped" kəşf etməyə ehtiyac yoxdur. Müxalifətin işi iqtidardan narazı elektoratın mübarizəsini və müqavimətini təşkil etməkdir. Sadəcə olaraq, müxalif düşərgədə çoxdandır dəyişikliklər olmur. İnsanlar artıq illərdir ki, eyni simalardan yorulub və onların böyük əksəriyyətinə etimad etmir. Müxalifət öz daxilində yeni liderlər yetişdirib cəmiyyətə təqdim etməlidir. O da öz növbəsində narazı elektoratın etimadını qazanmalı və etirazı təşkil etməlidir. Ancaq bu zaman hakimiyyət güzəştlərə məcbur edilə bilər. Yəni biz çalışmalıyıq ki, xalq faktorunu siyasi səhnəyə qaytaraq. Bir sözlə, ən böyük yenilik və yeni taktika xalqın etimadını geri qaytarmaqdır".

**AMİP katibi Əli Orucov isə qeyd etdi ki, iqtidarın son sosial sahədə atdığı addımlar qismən də olsa cəmiyyətdə müəyyən qədər gərginliyin aradan qaldırılmasına kömək göstərib. Lakin hələ ciddi effekt verməyib:** “Müxalifətin əlində inzibatı, maliyyə, böyük insani resurslar olmasa da hesab edirəm ki, mövqeyi iqtidarınkından güclüdür. Çünki ölkədə ciddi narazılıqlar qalır. Korrupsiya, rüşvətxorluq, məmur özbaşınalıqları, israfçılıq, hakimiyyət qolları arasında qarşılıqlı nəzarət və əlaqələrin olmaması, məhkəmələrin durumu və sair kimi hallar müxalifətə böyük imkanlar yaradır. Eyni zamanda Qarabağ probleminin dalana dirənməsi iqtidar üçün minuslardır. Lakin müxalifət ənənəvi mübarizə üsulundan çıxa bilməyib. İnnovasiyalardan, yeni təşəbbüslərdən istifadə etmirlər. Xalqla və beynəlxalq ictimaiyyətlə əlaqələrdə çətinliklər qalır. Müxalifətdaxili intriqalar, çəkişmələr, qısqanclıqlar da bu düşərgənin güclənməsinə maneçilik törədir. Mənə elə gəlir iqtidar yaxşı anlayır ki, sosial sahələrdə kiçik güzəştlər qısa zaman üçündür. Köklü islahatlara da getmək risklidir. Odur ki, müxalifət onun üçün yaranmış fürsəti dəyərləndirməyi bacarmalıdır. Nəzərə almaq lazımdır ki, qarşıdakı payız aylarında ölkədə və regionda proseslər sürətlənəcək. Ən azından müxalifət buna hazırlıqlar görməlidir”.

❑ **E.SEYİDAĞA, “Yeni Müsavat”**



# Qanun naminə

Zamin HACI
zaminhaci@gmail.com

## "O tempora, o mores"

**(Latın məsəli, "Hər zəmanənin öz adətləri var" deməkdir. İstəsəniz "Hər şeyin zamana ehtiyacı var" kimi də oxumaq olar)**

**Həyatda işgəncə ilə, zülümlə oxuduğum kitablar da olub, bunlardan biri sovet yazıçısı Süleyman Rəhimovun "Mehman" povestidir. Əsər sırf kommunist propaqandası üslubunda yazıldığından az qala hər sətrindən yalan, pafos, fısqırıq söhbətlər püskürürdü. Təsəvvür edin, povestin qəhrəmanı bir prokuror idi, bu guya rayonda rüşvətxorluqla, qanunsuzluqla mübarizə aparırdı. Sovet vaxtı belə prokuroru nəinki Azərbaycanda, bütün SSRİ-də gündüz çıraqla axtarsan tapmazdın. (İndi, maşallah, bütün prokurorlarımız təmiz adamlardır. Həftədə 3 dəfə "Hacı Şakir" sabunuyla çimirlər, əksəriyyəti həccə gedib-gəlibdir). Bəs mən niyə bu fantastik əsəri oxumağa məcbur olmuşdum? Səbəb şəxsi idi: 1989-cu ildə orta məktəbi bitirib ali məktəbə imtahan verməliydim, həmin il qəbula düşən 100 ədəbiyyat inşasının mövzusu qəzetdə dərc edilmişdi, bunlardan biri də məhz "Mehman" əsəriydi. Mən dərslikdəki qısa parçaları yetərli saymayıb o 100 əsərin hamısını oxumuşdum ki, inşa yazarkən hazırlıqlı olum.**

İndi "Mehman"ın yadıma düşməsi isə... İspaniyada saat oğurluğu əhvalatına bağlıdır. Deyir bir azərbaycanlı "papanın gül balası" İspaniyada 2 milyon dollarlıq saatla əylənərkən lotular bunu tutub soyublar. Burada haşiyə çıxaraq İspaniyada, ümumiyyətlə, Avropada cinayətkarlıqla mübarizənin səviyyəsizliyini qeyd etməliyəm. Özünüz baxın, heç bizdə Novxanı plyajında hansısa ispan məmur balasını tutub soya bilərlərmi? Qətiyyən mümkün deyil. Hətta nəinki soyğun, bizim polislər əşyalarını, pullarını itirən turistlərə də ataliq qayğısı göstərir, dərhal tapıb verirlər. Bu haqda internetdə çoxlu xəbər görürük. Vaqif Səmədoğlu uzaqgörənliklə hələ 1980-ci illərdə "Yaşıl eynəkli adam" pyesində belə qanunsevər polis rəisinin obrazını yaratmışdı. Yadınıza gəlirsə, orada da Voronejdən gələn turist qadının çətiri tapılıb qaytarılırdı.

Mövzudan uzaqlaşmayaq. Bax, həmin bahalı saat teması dərhal zəhmətkeşlərimizin diqqətini çəkdi. Bu da xalqımızın zaman faktoruna, vaxta böyük əhəmiyyət verməsi, hər dəqiqəsini mənalı keçirməsi ilə bağlıdır: biz korrupsionerin villasına, oğurladığı pulun miqdarına o qədər önəm vermərik, nəinki bahalı saatına. Hətta elə olub bunu nəzərə alaraq iclasa ucuz saat taxıb gediblər.

İsveçrədə saat o qədər önəmli sayılmır, nəinki bizim çiçəklənən Azərbaycanımızda. Bir milyarderimiz vardı, bahalı saat kolleksiyası yığırdı, sonra biabırçı şəkildə iflasa uğradı. Ancaq nə dəxli? Əsas odur dünya onu qızıl saatlı oğlan kimi tanıdı. Sözgəlişi, bizdə Saatlı rayonu da var, bu bir daha zamana verdiyimiz qiyməti göstərir. Kim bilir, bəlkə Marsel Prust "İtirilmiş zamanın sorağında" əsərini bizim məmur uşaqlarının İbiza kurortunda itirdiyi saata həsr edibdir. Rəhmətlik ağır elmi seyidlərdən Stiven Hokinqin "Zamanın qısa tarixi" əsəri də bizim AMEA-da aparılan araşdırmalardan təkan almışdır. Yaxşı yadıma düşdü, Süelyman Rəhimovun həmin "Mehman" əsəri əsasında 1968-ci ildə çəkilən "Qanun naminə" adlı film müstəqillik dövrümüzdə bir müddət AzTV-də qadağan olunmuşdu. Kuryoz səbəbdən: sən demə, televiziyanın o vaxtkı şefinin babası əsərdəki Qaloş mənfi obrazının prototipi imiş. (Anan ölsün, Pelevin. Gör nə süjetlər var).

Əlqərəz, bax həmin "Qanun naminə" filmində prokurora yol tapa bilməyən rayon mafiyası axırda bunun cavan, iştahlı arvadını tovlamaq qərarına gəlir və ona ... qızıl saat hədiyyə edir. Sonra bu qanunsuz hədiyyədən xəbər tutan prokuror əsəbləşir, arvadı vurub öldürür. Zarafat edirəm, dəqiq yadımda qalmayıb, ancaq deyəsən, prokuroru rayon rüşvətxorları özləri öldürürlər. Buna qədərsə filmdə yarıanimasiya üslubunda bir effektli kadr göstərilirdi: qızıl saat gecə prokurorun arvadının yuxusuna girirdi, özü də arvad balaca, saatın əqrəbləri arasında qaçan formada göstərilirdi. Əqrəb qovurdu, arvad qaçırdı, nəsə belə bir şey idi. (İndi olsa Avropadan sığınacaq ala bilərdi, siyasi məhbus sifətində. Bankirin arvadı kimi). Prokurorun arvadı rolunda müğənni Flora Kərimova çəkilmişdi.

İndi söz əlaqədar təşkilatlarındır - sizin saatınız neçəyədir?



# Moskvadan Paşinyana həbs hədəsi gəldi: "Rusiya bunu unutmayacaq!.."

## İrəvan Moskva ilə yanaşı, Tiflisə də "əlcək" tulladı - Cavaxetiya "kartı" yenidən ortaya atıldı; Gürcüstanın mərkəzi hakimiyyəti iki işğalçının təhdidləri ilə üz-üzə...

**Azərbaycanın da yerləşdiyi region və onun ətrafında maraqlı və yetərincə həssas proseslər gedir. Bu proseslərin episentri indilikdə Gürcüstandır. Orada hakimiyyətə qarşı etirazlar hələ ki öz məntiqi sonluğuna çatmayıb. Ancaq bir şey aydındır ki, məlum hadisələrdən sonra Gürcüstan-Rusiya münasibətləri daha da pisləşib.**

Diqqətçəkəndir ki, hazırda Rusiyanın satellit Ermənistanla müttəfiqliyi də sonuncunun hərəkətləri üzündən rəvan dövrünü yaşamır. Baş nazir Nikol Paşinyan vaxtaşırı V.Putinin "ayağını" tapdayır, bu fonda özünü Qərb üçün əlverişli qiymətə "bazarlığa" çıxarmağa çalışır. Ötən ay BMT Baş Məclisində Gürcüstanla bağlı qətnamənin səsverməsi zamanı erməni təmsilçinin son 11 ildə ilk dəfə Rusiyanın əleyhinə mövqe sərgiləməsi, bir neçə gün öncə isə AŞ PA-da Ermənistan deputatlarının Rusiyanın xeyrinə olan sənədin əleyhinə səs verməsi buna bariz sübutdur.

Baş verənlər fonunda, üstəlik, İrəvanda sabiq prezident, Putinin şəxsi dostu, Xocalı hərbi canisi Robert Köçəryan Paşinyanın təkidi ilə yenidən zindana salınıb. Siyasi müşahidəçilərə görə, bütün bunlar Moskvada izsiz ötüşməyəcək və cavabı bir qədər gec də olsa, mütləq veriləcək.

*****

"Putinlə Köçəryan arasında şəxsi, isti münasibətlər var. Köçəryanın təzədən həbsi İrəvanın Moskva ilə hazırkı münasibətlərinə neqativ təsir edəcək". "Yeni Müsavat"ın məlumatına görə, bu sözləri 1in.am-a açıqlamasında ermənipərəst **rusiyalı politoloq Stanislav Tarasov** olayı şərh edərkən deyib.

**Onun sözlərinə görə, Nikol Paşinyan problemli siyasət yürüdür:** "Ermənistanın inqilabçı hakimiyyəti qabağa baxmaq əvəzinə, nədənsə daim geri boylanır. Köçəryanı türməyə salmaqla ölkənin vəziyyəti yaxşılaşmayacaq. Nəzərə almaq lazımdır ki, Köçəryan Qarabağın birinci "prezidenti" (dırnaqlar bizimdir - "YM"), Ermənistanın isə ikinci prezidentidir. Bunun sonu nə olacaq? Belə çıxır, nə vaxtsa başqa hakimiyyətlər də vəziyyəti Paşinyana qarşı ittihamlar səviyyəsinə gətirəcəklər? Bu, çox pis presedentdir. Moskvada İrəvana qarşı şəksiz ki, neqativ münasibət formalaşır".

**Rusiyalı politoloq qeyd edib ki, Moskvada gözləntilər olub ki, Ermənistanın yeni rəhbərliyi ölkəni sivil və demokratik edəcək.** "Ermənistan konstitusiyasına görə, prezident toxunulmazdır. Hər yerdə bu qaydanı gözləyirlər. Bu, pis presedentdir və Ermənistan ondan qazanmayacaq. Ola bilsin, Moskvadan rəsmi mövqe bildirilsin, amma istənilən halda, bu münasibətlərə neqativ təsir göstərəcək", - deyə o, əlavə edib.

*****

Putinin Köçəryanla dostluğu şübhəsiz ki, boş yerdən yaranmayıb. Moskva erməni eks-prezidentə ilk növbədə Qarabağ klanının ən odioz siması, separatçı rejimə mühüm təsir rıçaqı olan vasitə kimi baxır. Təbii ki, Köçəryanın içəridə olması Kremlə "Qarabağ kartı" vasitəsilə manevr eləmək və Paşinyana təzyiq göstərmək şansını azaldır. Eyni zamanda Paşinyan üçün separatçı bölgədə özünə loyal "hökumət" qurmaq fürsəti yaradır. Köçəryanın təzədən həbsinə Moskvanın qəzəbli reaksiyasının kökündə ilk növbədə bu durur.

Bu arada Ermənistan, deyəsən, Tiflisdəki qarışıqlığı fürsət bilib Gürcüstana qarşı da köhnə silahını işə salmağa çalışır. Söhbət Cavaxetiya separatçılarını altdan-altdan şirnikləndirməkdən gedir. Bu da növbəti fakt.

**"Yeni Musavat"ın erməni qaynaqlarına istinadən verdiyi məlumata görə, Cavaxetiyadakı erməni millətçiləri ölkədə növbədənkənar parlament seçkilərinin proporsional qaydada (partiya siyahısı üzrə) keçirilməsinin əleyhinə çıxış ediblər. Gürcüstan parlamentinin erməni deputatı Genzel Mkoyan səbəbi belə izah edib:** "Hakim partiya növbəti seçkilərin proporsional qaydada keçəcəyini açıqlayıb. Bu, bizim region üçün məqbul deyil. Ona görə ki, majoritar deputat bizim milli azlığın lideri - mərkəzi hakimiyyətdə öz xalqının nümayəndəsi idi. Bizim xalq proporsional sistemi istəmir. O özünün problemlərini mərkəzi hökumətə çatdırmaq üçün öz liderini istəyir".

Sadə dilə çevirsək, Mkoyanın sözlərindən belə anlaşılır ki, Cavaxetiya məhz öz "regional avtoriteti"nin parlamentdə təmsil olunmasını istəyir, proporsional seçki isə bu imkanı əldən ala, bölgədə ermənilərin, İrəvanın separatçı planlara zərbə vura bilər - hansı bölgə ki, vaxtaşırı mərkəzi hakimiyyətin mövqeyini nəzərə almadan özbaşına, birtərəfli addımlar atır. Bu ilin yanvarında Qarabağ döyüşlərində iştirak eləmiş erməni canisi Mixail Avakyana büstün qoyulmasını yada salmaq olar.

Rəsmi Tiflisin etirazına rəğmən, həmin büst hələ də öz yerindədir və şübhə yox ki, ilk növbədə Azərbaycanla Gürcüstanın arasını vurmağa hesablanıb. Görək, Gürcüstan hökuməti bu dəfə öz iradəsini Cavaxetiya bölgəsində yeridə biləcəkmi? Başqa sözlə, Tiflis İrəvanın atdığı "əlcəyi" götürəcəkmi? Nəhayət, iki işğalçının - Rusiya və Ermənistanın təhdidlərini necə dəf edəcək?..

**❑ Siyasət şöbəsi, "Yeni Müsavat"**

# Türkiyə siyasətinə yeni partiya gəlir

## Ərdoğanın yeni alternativi islamçı, kosmopolit, qərbpərəst qüvvələr olacaq

**Türkiyə siyasətinə yeni partiya gələ bilər. Hələ bir neçə il əvvəl AKP-dən bir qrupun ayrılaraq yeni partiya yaradacağı ilə bağlı iddialar olsa da, sonuncu seçkilərdən sonra bu yöndə hərəkətlilik artıb. Daha əvvəl mediada keçmiş prezident Abdulla Gül, sabiq baş nazir və hazırkı millət vəkili Əhməd Davudoğlu və baş nazirin keçmiş müavini, xarici işlər və maliyyə naziri postlarını tutmuş Əli Babacanın yeni partiya quracağı haqda xəbərlər belə görünür ki, reallaşmaq üzrədir.**



Belə ki, 23 iyun seçkiləri ərəfəsində mediada Əli Babacanın ölkə başçısı, eyni zamanda AKP-nin sədri olan Rəcəb Tayyib Ərdoğanla görüşməsi haqqında məlumatlar yayılıb. BBC-nin Türkiyə xidmətinin əldə etdiyi məlumatda qeyd olunurdu ki, prezidentlə görüşən Əli Babacan AKP daxilində son illərdə baş verən mənfi prosesləri bir-bir sadalayıb və bununla bağlı qeydlərinin toplandığı hesabatı ölkə başçısına təqdim edib. Eyni zamanda Babacan yeni partiya yaratmaqdan bəhs etməsə də, AKP-dən getmək istədiyini bildirib.

Öz növbəsində prezident Ərdoğanın Babacanın partiyadan ayrıldıqdan sonra uğur qazanmasının çətin olacağını, daha əvvəl də bu cür cəhdlər edənlərin uğursuzluğa düçar olduğunu xatırladaraq, AKP-də qalıb fəaliyyətini davam etdirməyə çağırıb. Ancaq Babacanın bu təkliflə razılaşmadığı qeyd olunur.

İyunun 27-də isə "Reuters" agentliyi Babacanın AKP-dən ayrılıb yeni partiya yaratmağa hazırlaşdığı haqda xəbər yayıb. Xəbərdə Babacana yaxın şəxslərdən birinə istinadən payızda Babacan və Abdulla Gülün yeni partiya yaradacağı qeyd olunur. Başqa bir mənbə isə Babacan və Gülün artıq 6 aydır yeni partiyanın qurulması istiqamətində çalışdığını, 31 mart seçkilərindən sonra isə bu prosesin sürətləndiyini deyib. Babacanın müşavirləri hələlik partiyanın strukturu, maliyyələşməsi ilə bağlı detallı bilgi verməsələr də, yeni yaradılacaq partiyada hazırda parlamentdə AKP-dən olan bəzi deputatların, siyasətçilərin və elm adamlarının olduğunu bildirib.

**Adını açıqlamayan AKP təmsilçisi isə Babacanın "güclü və hörmət edilən bir fiqur" olduğunu deyib. Eyni zamanda hakim partiyanın 31 mart və 23 iyun seçkilərinin nəticələrinin məsuliyyətini üzərinə götürməli olduğunu deyib. Sitat:** "Həm ölkəni idarə etdiyimiz, həm də xalqla bir yerdə olduğumuz keçmiş siyasətimizə geri dönməliyik".

Babacanın müşaviri AKP-nin hazırda parlamentdə təmsil olunan bəzi üzvlərinin də Babacanın layihəsinə dəstək verdiyini bildirib. Hətta bir neçə sürpriz adamların da olduğunu deyib, ancaq ad çəkməyib. Ancaq maraqlıdır ki, keçmiş baş nazir Əhməd Davudoğlunun Babacanın yeni partiyasına keçəcəyi gözlənilmir. Davudoğluna yaxın şəxslərdən biri deyib ki, sabiq baş nazir hələlik Babacanın partiyasına qatılmağa hazırlaşmır.

Bu arada, Türkiyədə mühafizəkar camiəyə bağlı "Yeni Akit" qəzeti Əli Babacanın qurmağa hazırlaşdığı partiyada təmsil olunacaq şəxslərlə nahar etdiyini yazıb. Qəzet yemək süfrəsi arxasında Babacanla birlikdə əyləşən şəxslərin yeni partiyanın üzvləri olduğunu iddia edib. Qəzetin yazısında qeyd olunur ki, hakim partiyanın İstanbul bələdiyyə seçkilərində məğlubiyyəti hakim elita daxilində ayrılmaq istəyənləri hərəkətə gətirib. Qəzetin yazısında qeyd olunur ki, hazırda Əli Babacan və Əhməd Davudoğlu üzərindən aparılmaqla iki ayrı partiya quruluşu işləri aparılır. İddia olunur ki, Yozqat vilayətində Konstitusiya Məhkəməsinin keçmiş sədri Haşim Kılıcın anasının hüzr mərasiminə gedən AKP heyətindən bir qrup Babacanla birlikdə geri dönüşdə yemək süfrəsi arxasında toplanıb. Bir restoranda təşkil olunan görüşdə Babacanla birlikdə Türkiyə parlamentinin sabiq spikeri Cəmil Çiçək, sabiq nazirlərdən Sadullah Ergin, Bəşir Atalay, Lütfullah Kayalar kimi məşhur şəxslər olub. Ancaq Babacana yaxın mənbələr toplantının partiya qurucuları ilə əlaqəsinin olmadığını, sadəcə, yemək süfrəsi olduğunu deyib. O da bildirilir ki, sabiq spiker Cəmil Çiçək prezident Ərdoğanın Ali Məsləhət Qurumunun üzvlüyü təklifini qəbul edib.

"Sözcü" qəzetinin yazdığına görə, Babacanın liderliyində qurulacaq yeni partiyanın arxadakı əsas şəxs olan keçmiş prezident Abdulla Gül partiyaya nüfuzlu şəxsiyyətləri dəvət edir. Bunlardan biri də dünyaca məşhur iqtisadçı, erməni əsilli Daron Ecemoğludur. Qəzetin iddiasına görə, Ecemoğluna prezidentliyi dövründə mükafat verən Abdulla Gül onun yeni qurulacaq partiyanın təsisçiləri sırasında yer almasını və partiyanın iqtisadi mövzularda önə çıxmasını istəyir. Ecemoğlu ABŞ və dünyada məşhur olan bir sıra əsərlərin müəllifidir, nüfuzlu iqtisadçı kimi tanınır. 2013-cü ildə Abdulla Gül tərəfindən "Mədəniyyət və Sənət" mükafatı verilən Ecemoğlu hazırda dünyada ən çox istinad edilən 10 iqtisadçıdan biridir. Hazırda ABŞ-ın və dünyanın ən nüfuzlu universitetlərindən olan Masaçusetts Texnologiyalar İnstitutunda (MİT) dərs deyən Ecemoğlu Türkiyə ermənilərindəndir. Onun qayınatası isə Turqut Özal kabinetində dövlət naziri postunu tutmuş İsmayıl Özdağlardır.

Məsələ ondadır ki, yeni partiyanın qurucuları həssas şəkildə seçilmiş şəxslərdir. Hazırda Türkiyə hakimiyyətinin Qərb ölkələri ilə bir sıra mövzularda ciddi fikir ayrılığı var. Daha çox milli mühafizəkar cizgidə olan və Türkiyənin dindar-mühafizəkar elitasına xitab edən Ərdoğanın nüfuzu çox yüksəkdir.

Maraqlıdır ki, indi Ərdoğana qarşı məhz partiyasından ayrılanların qurmağa hazırlaşdığı partiya Türkiyə daxilində mühafizəkar camiənin adamları sayılsalar da, xarici siyasətdə daha çox qərbyönlü, həmçinin kosmopolit və körfəzin ərəb ölkələri ilə yaxın əlaqələrə və əməkdaşlığa əsaslanır. Məsələn, əgər Ərdoğan Qətər, Misir "ixvan"ı kimi siyasi islamçı camiə ilə ittifaqdadırsa, Abdulla Gül və Davudoğlu bu xəttə qarşı olan Səudiyyə Ərəbistanı, körfəz xətti ilə daha yaxındır, Abdulla Gül bir neçə il Səudiyyə Ərəbistanında çalışıb, ərəb ölkələri ilə yaxın əlaqələrə malikdir. Eyni zamanda Ərdoğanın Qərblə soyuq münasibətləri fonunda Gülün, Babacanın Qərb ölkələri ilə isti münasibətləri daha çox nəzərə çarpır. Və nəhayət, erməni əsilli nüfuzlu siyasətçinin yeni partiyaya cəlb olunması Babacan-Gül ittifaqının Türkiyə daxilində etnik qrupların, xaricdə isə lobbi qruplarının dəstəyinə ümid etdiyini göstərir.

Bu mənada bütün parametrləri ilə yeni partiya Ərdoğana alternativdir. Əlbəttə, son seçkilərin fonunda AKP-nin nüfuz itkisi yaşaması, eləcə də partiya daxilində uzun illərdir formalaşan müxalifətin nə zamansa yeni partiyanın ortaya çıxması ilə nəticələnəcəyi gözlənilirdi. Lakin Ərdoğan hələ də güclü siyasətçidir və Türkiyədə ciddi elektoratı var. Lakin AKP-dən nüfuzlu şəxslərin ayrılması təbii ki, AKP-nin təkbaşına hökumət erasını sonlandıra bilər.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# Ərəb ölkələri ABŞ-İran müharibəsinə qarşı

## Vaşinqton-Tehran xəttində gərginlik davam etsə də, ABŞ-ın Avropa və körfəz müttəfiqləri İranla savaşdan çəkinir

**ABŞ-İran qarşıdurması səngiyir. Hər halda, ötən gün verilən açıqlamalar belə deməyə əsas verir. Doğrudur, körfəzdə hələlik hərbi güclər əvvəlki kimi qalır, amma liderlərin açıqlamaları kifayət qədər yumşalıb.**

Məsələn, bir gün əvvəl "İranı məhv edərik" deyən ABŞ prezidenti Donald Tramp Yaponiyada G-20 sammitində baş nazir Şinzo Abe ilə görüşü zamanı bildirib ki, İran mövzusunda tələskənliyə ehtiyac yoxdur. Hazırda İranla Vaşinqton arasında gərginliyi yatırmaq üçün "tələskənliyə gərək olmadığını" bildirən ABŞ prezidenti "Zamanımız var, tələskənliyə də gərək yoxdur. Vaxt qazana bilərlər. Qətiyyən heç hansı bir təzyiq müzakirə mövzusu deyil" deyib.

Oxşar yumşaq tonlu açıqlama İrandan da gəlib. İran xarici işlər nazirinin müavini Seyid Kazım Səccadpur ABŞ və İran arasındakı gərginliyin müharibəyə çevriləcək səviyyədə olmadığı bildirib. Səccadpur deyib ki, böhran müharibəyə çevriləcək səviyyədə deyil. Vaşinqtonun Tehranın qırmızı xətlərini bildiyini qeyd edən iranlı rəsmi prezident Həsən Ruhaninin bu qırmızı xətləri müəyyənləşdirdiyini qeyd edib.

Qeyd edək ki, ABŞ prezidentinin İranın ali dini liderini sanksiya siyahısına salmasından sonra Həsən Ruhani bildirib ki, bu qərar danışıqlar ehtimalını daha da azaldıb.

Bu arada, məlum olub ki, İranın regiondakı əsas rəqibi və Tehrana qarşı müharibənin əsas tərəfdarı olan Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri İrana qarşı müharibə istəmir. ABŞ-ın "Nyu York Tayms" qəzetinin yazdığına görə, adıçəkilən ölkələr İrana qarşı təzyiqləri dəstəkləsələr də, müharibəyə qarşıdırlar. BƏƏ və Səudiyyə Ərəbistanı rəsmiləri bu mövqeyi ABŞ dövlət katibi Mayk Pompeo ilə görüş zamanı bildiriblər.

Tramp administrasiyasından yüksək rütbəli rəsmilərdən biri qəzetə bildirib ki, müharibə olacağı təqdirdə ən böyük zərbənin bu iki ölkəyə olacağı ehtimal edilir. Əgər Tramp seçkilərdə məğlub olarsa, o zaman bu iki ölkə savaşın ortasında köməksiz qala bilər.

Bir neçə gün əvvəl BƏƏ-nin xarici işlər naziri Abdullah bin Zayed bəyan edib ki, onun hökumətində Fuceyra limanında tankerlərə hücumu hansı ölkənin törətməsi ilə bağlı sübutlar yoxdur. Məsələ ondadır ki, hələ mayın 12-də ilk dəfə Fuceyrada 4 tanker hücuma məruz qalanda, hadisədən az sonra BƏƏ-yə gələn ABŞ prezidentinin müşaviri Bolton hücuma görə İranın məsuliyyət daşıdığını bildirmişdi. Həmin vaxt beynəlxalq istintaq başa çatmasa da, Bolton "bütün işarələrin İranı göstərdiyini" demişdi.

BƏƏ rəsmiləri də hücumda İranın "barmağının olduğunu" bildirmişdi. Ancaq bir qədər sonra rəsmi hesabat hazır olanda BƏƏ bu sənədi BMT-yə təqdim etmişdi, ancaq sənəddə hər hansı ölkənin adı yox idi. İndi isə Qərb mətbuatının yazdığına görə BƏƏ İranla üz-üzə qalmaq istəmir, daha çox Səudiyyə Ərəbistanını irəli verir. Qətər mediasına görə isə İranın ABŞ-a məxsus PUA-nı vurması və bundan sonra Vaşinqtonun geri addım atması BƏƏ-ni narahat edib.

Nüfuzlu "Times" qəzeti ABŞ və Avropa müttəfiqlərinin İrana qarşı müharibə mövzusunda bölündüyünü yazıb. Qəzetin yazdığına görə, ABŞ müdafiə nazirinin səlahiyyətlərini icra edən Mark Esper Brüsseldə keçirilən NATO toplantısında müttəfiqləri İrana qarşı beynəlxalq koalisiyaya cəlb etməyə çalışsa da, uğursuzluğa düçar olub. Belə ki, ABŞ müdafiə nazirinin Avropalı tərəfdaşlarına Tehranın "nüvə şantajına" boyun əyməmə çağırışı edib, ancaq görüşdən əliboş dönüb. Nazirin müttəfiqləri İranla gərginliyin beynəlxalq reaksiya tələb edən qlobal bir problem olduğuna inandırmağa çalışsa da, Avropa ölkələri bu fikirlə razılaşmayıb. Ancaq avropalı diplomatlar NATO-nun ABŞ-İran gərginliyinə daxil olmaqda maraqlı olmayıblar. Bunun əvəzinə avropalı diplomatlar gərginliyi azaltmağı təklif ediblər.

Qeyd edək ki, bu həftənin




əvvəlində ABŞ prezidenti NBC telekanalına müsahibəsində İranla müharibə hazırlığı ilə bağlı danışıb. Tramp deyib ki, İranla müharibə ilə bağlı Səudiyyə Ərəbistanı vəliəhd-şahzadəsi ilə telefonla danışıb. ABŞ prezidenti deyib ki, onlar Səudiyyə Ərəbistanını qorumaq müqabilində pul alırlar.

**Sitat:** "Keçmişdə Vaşinqton Səudiyyə Ərəbistanını qoruması müqabilində heç nə almayıb. Ancaq indi müdafiə maddi gəlir təmin edir. Səudiyyə Ərəbistanı bizdən 400 milyard dollar dəyərində məhsul alır".

Tramp deyib ki, vəliəhd-şahzadə Məhəmməd bin Salmanla telefonla danışığı zamanı ona İranla müharibənin çox bahalı olduğunu, onların ölkələrini qorumaq qarşılığında region ölkələrinin Amerikaya pul verməli olduğunu dediyini, onun isə bununla razılaşdığını qeyd edib.

Ancaq açıqlamalar və liderlərin davranışları göstərir ki, müharibə riski indi xeyli azalıb. Lakin tamamilə yox olduğunu da demək olmaz. Ehtimal ki, gərginlik davam edəcək. Vaşinqton Tehranı təzyiq altında saxlamaq, onun regiondakı fəaliyyətini məhdudlaşdırmaq fikrindədir. Ancaq daha kəskin qarşıdurma riski də qalır, lakin bunun üçün hələlik uyğun zəmin yoxdur. Çünki indiki şərtlərdə toqquşma təkcə tərəflər üçün deyil, bütün region üçün ciddi risk yaradır.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 137 (7307) 29 iyun 2019

# Rusiya çirkli neftə görə kompensasiya ödəməyə başlayıb

## Azərbaycan “Drujba”dan zərər çəkibmi?

**Rusiyadan Avropaya neft daşıyan “Drujba” kəmərində çirkli neft aşkarlanması ilə bağlı məsələ getdikcə böyüyür. Qeyd edək ki, aprelin 18-də Belarusun Mozır neft emalı zavodunda neftdə orqanik xloridin çox olması aşkarlanıb. Həmin neft Samara vilayətindən daxil olan neft olub. Bundan sonra Avropaya “Drujba” kəməri ilə neft nəqli dayandırılıb.**

Araşdırmalar zamanı məlum olub ki, neft kəmərinə xlor qarışıqlı tullantılar vurulub. Eyni zamanda çirkli neftin kəmərə “Transneft”in strukturlarından biri tərəfindən korrupsiya məqsədi ilə vurulduğu üzə çıxıb. Nəticədə Belarus neftayırma zavodları da daxil olmaqla, həm “Transneft”in kəmərləri ilə neft nəql edənlər, həm “Drujba” kəmərindən neft alanlar Rusiya tərəfindən kompensasiya tələb edirlər.

Məsələyə şəxsən münasibət bildirən Belarus prezidenti Lukaşenko prezident Vladimir Putinin iki neft emalı zavoduna dəyən zərəri ödəyəcəyinə əminliyini ifadə edib. Onun sözlərinə görə, bu zərərin məbləği yüz milyonlarla dolları əhatə edir: “O, (Vladimir Putin) başa düşür ki, zərəri kompensasiya etmək lazımdır. Özü deyib ki, Rusiya üçün ən böyük itki imic itkisidir. Bu zərərin mərkəzində isə Belarus dayanır. Ən çox biz itirdik. Putin ictimai şəkildə bəyan etdi ki, bu, böyük zərərdir. Nə qədər? Mütəxəssislər hesablayar. Hesab edirəm ki, ruslar bunu mübahisələndirməməlidirlər. Yoxsa biz bu məsələyə görə ruslarla məhkəmələk olacağıq? Düşünürəm ki, biz kimin kimə nə qədər borclu olduğunu ayırd edəcəyik”.



İyunun 26-dək Belarusun ərazisindən 705,2 min ton çirkli neft çıxarılıb. Belarus baş nazirinin müavini İqor Lyaşenko məlumat verərək qeyd edib ki, həyata keçirilən tədbirlər nəticəsində avqustun 15-dək çirklənmiş neft keyfiyyətli neftlə tam əvəz olunacaq. Belarusun neft kəmərlərində ümumilikdə 1,2 milyon ton çirklənmiş neft olub.

Çirkli neftə görə kompensasiya tələb edən daha bir ölkə Polşadır. Polşanın baş naziri Mateuş Moravetski bəyan edib ki, Rusiya “Drujba” boru kəməri ilə çirkli neft axıtdığına görə vurduğu maddi ziyanı ödəməlidir. Nazir qeyd edib ki, Rusiyanın neft göndərənləri “çox ciddi logistik və əməliyyat səhvi” buraxıblar və buna görə də Rusiya tərəfi maddi məsuliyyət daşımalıdır. O, əlavə edib ki, bu məsələdə Moskva ilə “çətin danışıqlar” Polşa tərəfini qorxutmur: “Biz yol verə bilmərik ki, bizim avadanlıqlar, borular - bütün sistem Rusiya neftinin keyfiyyətsizliyi səbəbilə zərər çəksin”.

Ardınca isə Fransanın “Total” şirkəti çirklənmiş neftə görə Rusiyadan kompensasiya tələb edib. “Total”ın baş direktoru Patrik Puyannenin sözlərinə görə, rəhbərlik etdiyi şirkət Almaniyanın Loyn şəhərindəki neft emalı zavodu üçün yanacaq tədarükünü bərpa edə bilib. Çirklənmiş neftin kim tərəfindən təmizlənəcəyi isə hələlik məlum deyil. P.Puyanne vurğulayıb ki, neftin bir barelinin təmizlənməsi təxminən 15 dollara başa gəlir.

Hadisə kəmər keçən və kəmərdən neft alan ölkələr və Rusiyanın “Transneft” şirkətinin nümayəndələri arasında müzakirə edilib. Müzakirənin nəticələri açıqlanmasa da, bəzi mənbələr Rusiya şirkətinin çirklənmiş neftə görə bütün zərərçəkənlərə kompensasiya ödəməyə razılaşdığını bildirmişdilər. Bu günlərdə yayılan məlumatlardan aydın olur ki, artıq bəzi tərəflər kompensasiya məbləği ilə bağlı razılığa gəliblər. Belə ki, «Reuters»in etibarlı mənbələrə istinadən yaydığı məlumata görə, “Transneft” şirkəti Qazaxıstanın “Kaztransoyl” şirkətinə çirkli neftə görə kompensasiya ödəməyə razılaşıb. Kompensasiya məbləğinin hər barel üçün15 dollar təşkil edəcəyi bildirilir. Agentliyin mənbələri deyiblər ki, kompensasiyanın ümumi məbləği 76 milyon dollar olacaq. Bu məbləğ Qazaxıstan şirkətinin “Transneft”in kəmərləri ilə nəql etdiyi neftə tullantıların qarışdırılması nəticəsində keyfiyyətin itməsi, boş dayanma və saxlama ilə bağlı maliyyə itkilərini qismən kompensasiya edəcək (Virtualaz.org).

“Kaztransoyl” şirkətindən bildiriblər ki, onlar 2019-cu il mayın əvvəllərində Samarada “Transneft”ə 600 min ton neft təmiz neft təhvil veriblər və analoji həcmdə nefti Ust-Luqada təhvil alıblar, amma həmin neft zərərli tullantılarla çirklənmişdi.

“Vedemosti” qeyd edir ki, “Kaztransoyl” çirkli neftdən ziyan çəkən və “Transneft”dən kompensasiya alan ilk şirkətdir.

Qeyd edək ki, “Transneft”in kəmərləri ilə Azəbaycan və Türkmənistan nefti də nəql olunur. Bu baxımdan, Azərbaycanın çirkli neft qalmaqalından nə qədər ziyan çəkdiyi maraq doğurur. Bununla bağlı sorğumuza cavab olaraq SOCAR-ın ictimaiyyətlə əlaqələr və tədbirlərin təşkili idarəsinin rəis müavini İbrahim Əhmədov bildirir ki, Azərbaycan nefti əsasən Bakı-Tiflis-Ceyhan boru kəməri ilə nəql edilir: **“Bir hissəsi Bakı-Supsa və Bakı-Novorossiysk kəmərləri üzərindən daşınır, lakin son aylarda Bakı-Novorossiysk kəməri üzərindən neftimiz nəql olunmayıb. Digər tərəfdən, Novorossiysk və "Drujba" ayrı-ayrı kəmərlər və bir-birindən uzaq olan marşrutlardır".**

Onu da bildirək ki, həqiqətən də SOCAR Bakı-Novorossiysklə neft nəqlini martın ortalarından dayandırıb. Neft nəqli planlı yoxlama işləri ilə əlaqədar dayandırılıb. Nəqlin iyulun 1-dən etibarən bərpa ediləcəyi gözlənilir. Bu barədə mətbuata SOCAR-ın vitse-prezidenti Elşad Nəsirov məlumat verib.

❑ **DÜNYA,**
**“Yeni Müsavat”**

# Yaşayış binalarında insanların rahatlığını pozan “moyka”lar

## **Hüquqşünas:** “Məsələ ilə bağlı məhkəməyə müraciət edib, iki məsələni tələb etmək olar”

**Bakıda son zamanlar avtoyuma məntəqələrinin (“moyka”) sayı durmadan artır. Əksər “moyka”lar isə binaların həyətində, yaşayış yerinə yaxın ərazilərdə tikilir. Bu isə əlavə problemlərə yol açır. Belə ki, “moyka”larda işlədilən elektrik cihazlarının, su nasoslarının səsindən yaxınlıqda yaşayan insanlar narahat olurlar, bəzən onlar gecələr də işləyərək, insanların dincəlməsinə imkan vermirlər.**

“Moyka”larda çox zaman yüksək səslə musiqi də oxudulur ki, bu da əlavə problemlərə yol açır. Məsələ ilə bağlı “Yeni Müsavat”a şikayət edən oxucular bildiriblər ki, xüsusilə də problem Xətai rayonunda daha da acınacaqlıdır. Burada fəaliyyət göstərən “moyka”ların əksəriyyətində yüksək səslə musiqi oxudulur, gecə saatlarına qədər nasoslar işlədilir.




Öncə qeyd edək ki, avtoyuma məntəqəsinin açılması üçün Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə müraciət etməlisən. Ərizəyə həmin şəxsin şəxsiyyətini təsdiq edən sənədin notariat qaydasında təsdiq olunmuş surəti, həmçinin ərizədə qeyd olunan obyektə ərizəçinin mülkiyyət və ya digər əşya hüququnu təsdiq edən sənədin notariat qaydasında təsdiq olunmuş surəti, habelə olduğu təqdirdə müvafiq dövlət orqanları ilə razılaşmalarının surətləri və obyekt üzrə digər zəruri texniki sənədlər əlavə olunmalıdır. Ərizəyə 30 gündən gec olmayaraq baxılır. Sənədlərdə problem olarsa, nazirlik tərəfindən geri qaytarılır və şəxs problemi aradan qaldırıb, yenidən müraciət etməlidir.

Şəhərdə fəaliyyət göstərən avtoyuma məntəqələrində qiymətlər fərqlidir. 3, 5, 10, 20, hətta 30 manata maşın yuyulan “moyka”lar var. Qiymətlər maşının yuyulma qaydasından və formasından asılı olaraq dəyişir. Qiyməti 3 manata olan “moyka”larda avtomobil 1 dəfə dərmanlanır, daha sonra təzyiqlə su vurulub qurulanır. Həmin qayda ilə bu cür yerlərdə “Ceep”ləri 5 manata yuyurlar. Təmaslı yuyulan yerlərdə isə əsasən “Sedan”lar 6, “Ceep”lər 10 manata yuyulur. Burada salon tozsoranla təmizlənir, təkərlər qaraldılır, maşının hər yeri səliqəli şəkildə təmizlənir. 20-30 manatlıq yerlərdə isə maşın parla yuyulur, motorxana təmizlənir. Qiymət “moyka”nın harada yerləşməsindən asılı olaraq da dəyişir. Şəhərin mərkəzinə doğru qiymətlər bahalaşır.

Bəs “moyka”lar harada açıla bilər? Qanunda bu barədə nə yazılıb?

Qanunvericilikdə texniki təmir, texniki qulluq stansiyaları deyilən anlayış var. Onların tikintisi standarta uyğun olmalıdır. Qanunvericiliyə görə, bu tikililər hərəkətə manee yaratmamalıdır. Eyni zamanda səkidə, yaşayış yerinə həddindən artıq yaxın ərazidə də qanunlara görə hansısa texniki təmirdən söhbət gedə bilməz.

**“Yeni Müsavat”a danışan Əsabəli Mustafayev bildirib ki, bu cür məsələlərdə vətəndaş məhkəməyə müraciət edə bilər:**

“Bizdə səsin gücünə görə normalar var. Orada göstərilib ki, yaşayış sahəsində gündüz və gecə saatlarında səs nə qədər ola bilər. Bununla bağlı normativ akt var. Buna istinad edilərək, məhkəməyə müraciət olunur. Məhkəmədə ya dəymiş ziyan tələb olunur, ya da obyektin köçürülməsi. Dəymiş ziyan dedikdə, burada mənəvi ziyandan söhbət gedir. Yəni səs nəticəsində sən istirahət edə bilmirsən, evdə narahat olursan və sairə. Maraqlı şəxs kimi də icra hakimiyyətini, yaxud da bələdiyyəni cəlb etmək olar. İstənilən halda, bu, məhkəmələk olan işdir. Yaşayış yerində xidmət obyektləri ola bilər. Ancaq orada sanitar normalara nəzarəti həyata keçirmək lazımdır. Obyektin ayrıca kanalizasiya, su xətti olmalıdır ki, işlədilən su evlərin zirzəmisinə getməsin. Bundan əlavə, obyektin yaratdığı səs-küy də yaşayış üçün problem yaratmamalıdır. Bütün bunlara riayət edilməlidir. Sakinlər sanitar-gigiyenik mərkəzlərə də müraciət edib, bildirməlidirlər ki, obyektin evdən bu qədər aralıda tikilməsi ilə bağlı rəy verilsin. Rəy verilərsə, sakinlər məhkəmədə iddia qaldırıb, obyektin köçürülməsinə nail ola bilərlər”.

❑ **Əli RAİS,**
**“Yeni Müsavat”**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 137 (7307) 29 iyun 2019



# Bakıdan İrəvana daha bir müharibə xəbərdarlığı

## Yarımçıq qalmış aprel yürüşünün davamı gələcək; azərbaycanlı deputat AŞ PA tribunasından dünyaya Qarabağ çağırışı etdi: "Ermənistanı durdurun!.."

**2019-cu ilin birinci yarısı da artıq Dağlıq Qarabağ münaqişənin həlli baxımından itirilmiş sayıla bilər. Azərbaycan və Ermənistan XİN başçıları arasında reallaşan son görüşlər də təsdiqlədi ki, Qarabağa dair tərəflər arasında mövqe fərqləri diametral zidd olaraq qalır. Əgər Azərbaycanın mövqeyi beynəlxalq hüququn təməl prinsiplərinə əsaslanırsa, Ermənistan işğal faktını və status-kvonu, yəni işğalı rəsmiləşdirməyə çalışmaqla nizamlama prosesini dalana dirəyir.**




Sözsüz ki, belə bir vəziyyət ən çox ərazisinin 20%-i işğal altında olan Azərbaycanı qane eləmir. Odur ki, Bakı nə vaxtsa ərazi bütövlüyümüzü bərpa edəcək ordumuzun döyüş hazırlığına xüsusi diqqət verir. Paralel surətdə yerli hərbi-sənaye kompleksi daim inkişaf etdirilir, ölkəmiz öz maliyyə potensialı hesabına xaricdən yeni silah-sursatlar və müasir hərbi sistemlər almaqda davam edir.

Təbii ki, Azərbaycan böyük paralar xərcləyib aldığı silahları yalnız vitrində qoymaq, yaxud hərdənbir hərbi paradda nümayiş etdirmək fikrində də deyil. Azərbaycan prezidenti İlham Əliyev 26 iyun Ordu Günü ilə bağlı etdiyi çıxışında bu xüsusda bir daha Azərbaycanın təcavüzkar Ermənistandan üstün hərbi qüdrəti haqda danışıb, Qarabağ müharibəsinin bitmədiyini söyləyib. Bununla rəsmi Bakı bir daha işğalçı ölkəyə və onun havadarlarına növbəti dəfə müharibə ismarışı göndərib, düşmən tərəfi konstruktiv mövqeyə çağırıb.

*****

Əfsus ki, düşmən tərəf hələ də təxribatçı və absurd, kövrək sülh prosesini belə torpedalayan yanaşma sərgiləməkdədir. XİN rəhbərləri arasında görüşlər faktiki, əlavə vaxt itkisinə çevrilib. Bunun da əsas səbəbi sözsüz ki, işğalçı ölkənin özünü tam cəzasız hiss etməsi ilə bağlıdır. ATƏT-in Minsk Qrupunun üç həmsədr dövlətinin Ermənistana gizli-açıq rəğbəti, işğalçıya qarşı bu günədək heç bir sərt sanksiya tətbiq etməməsi, üstəgəl, Azərbaycanı işğalçını cəzalandırmaqdan çəkindirməyə çalışması düşmən ölkəni maksimalist, həyasız mövqe tutmağa, təmas xəttində vaxtaşırı təxribatlar törətməyə şirnikləndirir.

Ancaq 2016-cı ilin aprelindəki "4 günlük" müharibə göstərdi ki, Azərbaycanın səbri sonsuz deyil. Başqa yandan, bəllidir ki, atəşkəs rejimi 26 ildir heç bir beynəlxalq ayrıcı qüvvələr olmadan qorunur. Bu isə müharibə riskini daha da artırır. Nəhayət, müharibə gələndə heç kimdən soruşmur. Onun başlamaq həmişə asan, dayandırmaq isə qat-qat çətin olur.

O da var ki, bir əcnəbi hərbi ekspertin haqlı qeyd elədiyi kimi, Azərbaycan bu dəfə axıra kimi gedəcək. Yəni ən azından Dağlıq Qarabağ ətrafında, ermənilərin heç vaxt yaşamadığı qanuni torpaqlarımızı qısa zamanda işğaldan azad edəcək - hansı proses ki, 2016-cı ilin aprelində əslində yarımçıq qalıb. Yarımçıq qalmış aprel yürüşünün davamı mütləq gələcək. Hələliksə, Bakı İrəvana sülh anlaşması üçün səbirlə şans verməkdə davam edir - bu şanslar yanlış dəyərləndirilsə də...

*****




**Bu arada Dağlıq Qarabağ məsələsi, Ermənistanın 30 ildirt apardığı işğalçılıq siyasəti və ərazilərimizdə həyata keçirtdiyi qanunsuz məskunlaşma siyasəti öz işini davam etdirən Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) sessiyasında bir daha qaldırılıb. Belə ki, deputat Qənirə Paşayeva AŞ PA-da "Suriyada vəziyyət: siyasi həll üçün perspektivlər" adlı qətnamə layihəsinin müzakirəsi zamanı Azad Demokratlar Qrupu adından çıxış edərək AŞ PA-ya, Avropa təşkilatları və ölkələrinə çağırış səsləndirib (APA). O, işğalçı Ermənistanı Suriyadan qaçqın düşmüş erməniləri işğal etdikləri Azərbaycan torpaqlarına yerləşdirməkdə ittiham edib və AŞ PA-nı bunun durdurulması üçün Ermənistana təzyiq etməyə səsləyib.**

"Suriyada bir neçə ildir, davam edən müharibə II Dünya müharibəsindən sonra dünyanın üzləşdiyi ən ağır humanitar böhrana gətirib çıxarıb. Bir müddət əvvəl Suriyadan köçkün düşmüş türkmənlər, bizim soydaşlarımız bizimlə görüş zamanı onların istəklərini buradan səsləndirməyimizi istədilər. Çox böyük əziyyətlər yaşayan türkmən köçkünlər Parlament Assambleyasını onların yaşadığı faciələrə daha çox diqqət ayırmağa çağırır və onların həllində daha çox dəstək gözlədiklərini söyləyirlər. Suriyada yaşanan faciələrdən qaçmaq məcburiyyətində qalan insanlara etnik və dini mənsubiyyətindən asılı olmayaraq, dəstək göstərmək bütün üzv ölkələr üçün vacibdir. Amma onlardan hansısa çirkin siyasi oyunlar üçün istifadə etmək doğru deyil və bu beynəlxalq sənədlərdə də öz əksini tapır. Suriyadan qaçmaq məcburiyyətində qalan ermənilərin rəsmi İrəvan tərəfindən Ermənistanda deyil, işğal edilmiş Azərbaycan torpaqlarında yerləşdirilməsinin ATƏT-in faktaraşdırıcı missiyasının çağırışlarına da zidd olduğunu diqqətə çatdırır və buna son qoyulmasının vacibliyini xüsusi vurğulamaq istəyirəm", - deyə azərbaycanlı millət vəkili vurğulayıb.

*****

Şübhə yox ki, Ermənistana beynəlxalq birliyin, xüsusən də vasitəçi dövlətlərin təzyiqi olmayınca, o, nə işğalçı siyasətindən, nə də ərazilərimizdə qanunsuz məskunlaşdırma siyasətindən əl götürəcək. Buna qarşı daha bir effektli yol Azərbaycan Ordusunun hərəkətə keçməsidir. Təbii ki, Azərbaycanın hərbi-siyasi rəhbərliyi məqbul bildiyi məqamda bu qərarı verəcək. Bəlkə də artıq verilib. Çünki belə qərarlar adətən məxfi saxlanılır...



# Hərbçilərimiz Belarusdakı hərbi parada qatılacaqlar

**Azərbaycan Ordusunun bayraqdarlar heyəti iyulun 3-də keçiriləcək Belarusun Müstəqillik Gününə həsr olunmuş hərbi paradda iştirak etmək üçün Minsk şəhərindədir. Musavat.com-un məlumatına görə, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.**

Bildirilir ki, hərbi qulluqçularımız artıq digər ölkələrin parad heyətləri ilə birlikdə hazırlıq məşqlərinə başlayıblar.

Qeyd edək ki, hərbi paradda Azərbaycan Ordusunun bayraqdarlar heyəti ilə yanaşı, Belarus, Rusiya və Çin Xalq Respublikasının parad heyətləri də iştirak edəcək.

Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında nəşr olunur. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 137 (7307) 29 iyun 2019

# Merkelin titrəməsinin səbəbləri - xəstəlik, yoxsa...

## Seyfəddin Əsəd: "Yeganə nəzarət olunmayan orqan beyindir"

**Hazırda dünya mətbuatı Almaniya kansleri Angela Merkelin rəsmi görüş zamanı titrəməsi ilə çalxalanır. Kansler Almaniyanın ədliyyə naziri Katarina Barlinin Avropa Parlamentinə seçilməsi ilə bağlı təşkil edilən mərasimdə ikən titrəməyə başlayıb. O, Almaniya prezidenti Frenk-Uolter Steynmerin çıxışı zamanı yanında dayanarkən titrəməsini saxlaya bilməyib. Bundan qabaq Ukrayna prezidenti Vladimir Zelenski, daha əvvəl isə Fransa prezidenti Emmanuel Makronla görüşü zamanı o, titrəyərkən görüntülənmişdi.**

Almaniya hökuməti Merkelin xəstə olub-olmadığı ilə bağlı heç bir informasiya açıqlanmır. Dünyanın nüfuzlu media qurumları belə Merklin xəstəliyinin nə olduğunu, titrəməsinin səbəblərini araşdırmağa çalışırlar. Merkel özü isə titrəməsinin səbəbini izah edərkən, "susuz qaldım" desə də, mütəxəssislər əksini iddia edirlər. Bu, hansısa dərmanın əks təsiri və ya hansısa yüksək temperatura səbəb olan xəstəliyin simptomları da ola bilər. Həmçinin qanda şəkərin düşməsi də titrəməyə yol aça bilərdi.

Mütəxəssislər artıq xarici mediada bu hadisə ilə bağlı fikirlərini irəli sürməyə başlayıblar. Türkiyənin Üsküdar Universitesinin Beyin Xəstəxanası Nevroloji Uzmanı doktor Barış Mətin bildirib ki, Merkeldə titrəmənin təxminən 1 dəqiqə davam etdiyi və sonra rahatladığı görünür. Ancaq bu durum Merkelin iddia etdiyi kimi, susuzluqla bağlı ortaya çıxa bilməz. Əgər orqanizm titrəyəcək qədər susuz qalıbsa, o zaman təzyiq də düşür və bu zaman həmin şəxs ayaq üstə dura bilməz. Bu titrəmə bir Parkinson xəstəliyi və ya başqa bir nevroloji xəstəlik göstəricisi də deyil. Merkelin 64 yaşında olduğunu nəzərə alsaq, bu yaşda titrəmənin səbəbi bu dövrdə baş verən kəskin tremor hücumları və ya yeni başladığı hansısa dərmanın yan təsiri, həmçinin yüksək temperatur ola bilər. Məsələn, soyuqdəymə ilə bağlı dərmanlar bu cür əks təsir göstərə bilər. Ancaq psixoloji vəziyyətlə bağlı da ola bilər.



**Endokrinoloji və metabolizm xəstəlikləri uzmanı, professor-doktor Sərpil Salman isə bildirib ki, şəkərli diabet xəstələri ilə ünsiyyətdə olan bir adam kimi, Merkelin yaşadığı titrəmənin şəkərin düşməsi nəticəsində orta çıxdığını düşünür:** "Laborator analizlərin nəticələrini görmədiyimdən görüntülərə baxaraq ümumi bir nəticəyə gələ bilərəm ki, bu fizioloji və qalıcı bir duruma bənzəmir. Susuzluq belə bir əlamət verə bilməz. Hər iki olay da səhər erkən saatlarda meydana gəlib. Bu bir soyuq və isti hava dəyişimi səbəbindən ola bilər. Və ya gündəlik həyatında sıx bir qrafik, stress, yorğunluq yaşayırsa, vücud həddsiz stress zamanı titrəmə kimi reaksiya verə bilər".

**Doktor Seyfəddin Əsəd mövzu ilə bağlı "Yeni Müsavat"a danışarkən bildirdi ki, titrəmə nevroloji xəstəliyin əlaməti ola bilər: "Bu qeyd olunan səbəblərin hamısı mümkündür. Ancaq Almaniya kanslerinə yəqin ki, çox yüksək səviyyəli tibbi xidmət göstərilir.** Ona görə, bu titrəmənin şəkərlə bağlı olduğunu düşünmürəm. İndi şəkərli diabet xəstələrini elə aparatla təmin edirlər ki, şəkər qalxanda və ya düşəndə avtomatik olaraq qaydaya salır. Ona görə də hesab edirəm ki, bu nevroloji bir amildir. Bu susuzluqdan da ola bilməz, insan var ki, 3 gündür su içmir, oruc tutanda gün ərzində insan susuz qalır. Ancaq heç kimdə bu cür reaksiyaya səbəb olmur. O baxımdan mən nevroloji olduğunu düşünürəm, sırf beyinlə bağlıdır. İndi ürəyə də aparat yerləşdirib nəzarət etmək olur, yeganə nəzarət olunmayan orqan beyindir. Praktikada da müşahidə etmişik ki, bəzi xəstələr beyinlə əlaqədar titrəyir, ancaq sakitləşdirici vuran kimi dayanır".

**"Ankara Medical Center" klinikasının baş həkimi Zülfüqar Yusifov isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, əsas səbəb stress faktoru, fiziki və psixoloji yorğunluq ola bilər:** "Xarici mütəxəssislərin qeyd etdiyi məqamlar da mümkündür. Şəkər xəstələrində daha çox şəkərin düşməsi ilə müşahidə olunur. İkincisi, sinir sistemi xəstəlikləri buna səbəb ola bilər. Həmçinin həddindən artıq psixoloji, fiziki yüklənmələr titrətmə verə bilir. Xəstələrdə sinir sistemi həddindən artıq yükləndikdə orqanizmin müdafiə qabiliyyəti aşağı düşür. Merkelin qeyd etdiyi kimi, ciddi bir susuzluq keçirilibsə, bu da səbəb ola bilər. Çünki orqanizmdə susuzluq olarsa, qan qatılaşır, bütün metabolizma prosesi pozulur. Susuzluq da ciddi fəsad verə bilər. Ancaq Merkel kimi bir hökumət adamının bu vəziyyətə düşməsi stress faktoru ilə də bağlı ola bilər - təbii ki, əgər ciddi əlavə xəstəliyi yoxdursa..."

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

# Gürcü baş nazir Saakaşvilinin muradına çatdığını etiraf etdi

## Tiflisdə 8 gündür etirazlar səngimir, DİN rəhbəri nə zaman istefa verəcəyini açıqladı; Sülhəddin Əkbər: "Orada baş verənlərə daxili və regional inkişaf kontekstində baxmaq lazımdır"

**"İyunun 20-də Tiflisdə polis əməkdaşlarının aksiyaçılara qanuni güc tətbiq etməkdən başqa yolu olmayıb". "Yeni Müsavat" xəbər verir ki, bu barədə Gürcüstanın baş naziri Mamuka Baxtadze keçirdiyi xüsusi brifinqdə bildirib.**

Baş nazir deyib ki, həmin gün bir neçə saat ərzində polis əməkdaşları fiziki zorakılıq və təhqiramiz ifadələrə məruz qalıblar:

"Həmin gecə baş verənlər nə Daxili İşlər Nazirliyi, nə də onun rəhbərinin seçimi oldu. Bu, polis əməkdaşlarının ölkə konstitusiyası və nizam-intizamı qorumaqla bağlı vəzifə borcu idi".




**Baxtadze həmin gün çox ağır mənzərənin şahidi olduğunu qeyd edib:** "Həm vətəndaşlar, həm də polis əməkdaşları xəsarətlər aldılar. Vətəndaşlarımızın xəsarət alması baxımından nəticə ağırdır. İnsan sağlamlığından vacib heç nə yoxdur".

Hökumət başçısı sabiq prezident Mixail Saakaşvili və onun tərəfdarlarının Gürcüstanda ictimaiyyətin haqlı etirazından istifadə etdiyini də vurğulayıb.

**M.Baxtadze deyib ki, Vahid Milli Hərəkat Partiyasının nümayəndələri və onların liderı Mixail Saakaşvili 7 il idi Gürcüstanın hazırkı hakimiyyətinin büdrəməsini gözləyirdilər:** "Onlar kiminsə büdrəməsini gözləyirdilər və bəli, təəssüflər olsun ki, biz büdrədik".

Səkkizinci gündür davam edən etiraz aksiyasının iştirakçıları daxili işlər naziri Giorgi Qaxariyanın istefasını tələb edirlər.

G.Qaxariya Gürcüstanın televiziya kanallarında yayımlanan siyasi tok-şouların aparıcıları ilə iyunun 20-də Tiflisdə baş verən hadisələrlə bağlı sual-cavab formatında görüşdə istefa verməyəcəyini bildirib.

**Onun sözlərinə görə, Tiflis iğtişaşları ilə bağlı istintaq başa çatmayana qədər vəzifəsində qalacaq.**

"İstintaq bitdikdən və yekun nəticələr əldə etdikdən sonra mənim bu kreslodan imtina etməyim üçün heç bir problem olmayacaq", - deyə DİN rəhbəri bildirib.

Tiflisdə etirazlar rus deputat Sergey Qavrilovun gürcü spikerin yerində oturmasına görə başlayıb. Gürcüstan parlamentini tutmağa cəhd olunub.

Bakıdakı tədbiri yarımçıq qoyub ölkəsinə qayıdan parlamentin spikeri İrakli Kobaxidze istefa verib. Lakin Rusiyanın işğalçı olduğunu bildirən aksiyaçılar DİN rəhbərini də vəzifəsini tərk etməyə çağırırlar.

Hakim partiya rəsmiləri və ölkə prezidenti Salome Zurabaşvili proseslərin körüklənməsində Saakaşvilini ittiham edir.

Müxalifət partiyaları minimum səs həddinin - seçki baryerinin ləğv edilməsini İvanişvilinin hiyləgər gedişi adlandırıblar.

Çünki bu halda, o, tərəfdarları hesabına çox sayda kiçik partiya yarada, onları parlamentə gətirə və qanunverici orqan üzərində yenə də faktiki nəzarəti təmin edə bilər.

"Eurasianet"in gürcü yazarı Georgi Lomsadze hesab edir ki, Tiflis yenidən Qərb - Rusiya savaşının mərkəzinə çevrilir.

**Azad Demokratlar Partiyasının sədri, keçmiş MTN-də I müavin olmuş Sülhəddin Əkbər** "Yeni Müsavat"a bildirdi ki, Gürcüstanda həm Rusiya-Qərb qarşıdurması gedir, həm də xalqın İvanaşvili iqtidarı ilə hesablaşmadığı göz qabağındadır.

Onun sözlərinə görə, qloballaşan dünyada daxili və xarici siyasəti bir-birindən ayırmaq mümkün deyil.

**S.Əkbərin fikrincə, daxil və xarici siyasət üzvü şəkildə bir-birinə bağlıdır:** "Artıq regionda geopolitik qarşıdurma həlledici mərhələyə qədəm qoyub. Ona görə də Gürcüstanda baş verənlərə daxili və regional inkişaf kontekstində baxmaq lazımdır.

Biz 1789-cu il Fransa burjua inqilabını, 1917-ci il Oktyabr inqilabının dünyaya təsirlərini nəzərə alsaq və bu gün dünyanın bir-birinə daha da sıxlaşdığını, gürcülərin bizim qonşumuz olduğunu hesablasaq, Tiflisdəki proseslərin Azərbaycana təsir edəcəyi istisna deyil".

Politoloq düşünür ki, bu təsirlər həm siyasi inkişafın dinamikası, həm də Azərbaycan ətrafında beynəlxalq mühitin dəyişməsi baxımından özünü göstərə bilər.

S.Əkbər bununla yanaşı, Gürcüstandakı son seçkilərin nəticələrini və xalqın yenidən səhnəyə çıxmasını nəzərə almaqla Saakaşvili tərəfdarlarının təkrar iqtidar ola biləcəyini istisna eləmir.

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 137 (7307) 29 iyun 2019

# Xəzəri hasarlardan necə xilas edək

## BŞİH, eləcə də Ekologiya və Təbii Sərvətlər Nazirliyi Xəzər dənizini çəpərləyənlərə, çirkləndirənlərə qarşı mübarizəni sərtləşdirib...

**Bakı Şəhər İcra Hakimiyyəti dənizi qanunsuz çəpərləyən şəxslərə qarşı mübarizəyə başlayıb. Belə ki, BŞİH-in Ticarət və xidmət departamentindən bildirilib ki, məsələ ilə əlaqədar "Qaynar xətt" fəaliyyətə başlayıb. Vətəndaşlar çimərliklərə getdikdə girişin ödənişli olduğunu gördə 012 566-83-71 əlaqə nömrələrinə zəng etmələri xahiş olunur.**

Bundan əlavə, iyunun 27-də departament əməkdaşları Şıx çimərliyində 9 müxtəlif məkana baş çəkib, orada olan qapılar və şlaqbaumlar, habelə qiymət yazılan lövhələr götürülüb. Eyni zamanda sahibkarlara xəbərdarlıq edilib ki, çimərlik ərazilərinə giriş pulsuzdur, əhalidən yalnız xidmətə görə pul almaq olar.

Qeyd edək ki, çimərlik ərazilərinin pulsuz olması ilə bağlı qaydalar özəl çimərliklərə aid deyil.

Eldar Əzizov Bakı Şəhər İcra Hakimiyyətinə başçı təyin olunduqdan sonra onun bu kimi fəaliyyətləri barədə tez-tez məlumatlar yayılır. Əzizovun qurumun daxilində də islahatlar apararaq, korrupsiyaya bulaşmış şəxsləri vəzifədən azad etməsi ilə bağlı məlumatlar verilib. Bəs Xəzər dənizini hasarlayanlara qarşı mübarizə öz effektini verəcəkmi?

"Yeni Müsavat" xatırladır ki, bu problem ölkə ictimaiyyətində olduqca aktualdır. Daha öncə də bu barədə müzakirələr aparılıb, çıxış yolları təklif olunub. Lakin qaydalara məhəl qoymayıb, Xəzəri hasarlamağa davam edən sahibkarlar az deyil.

**Problemin müzakirəsi Milli Məclisin plenar iclasına da çıxarılıb. Deputatlar da dəfələrlə məsələ ilə bağlı narazılıqlarını dilə gətiriblər. Məsələn, deputat Fazil Mustafa bildirib ki, ərazilər özəlləşdirilsə, çimərliyin bağlanması qanunsuz haldır:** "Belə hadisələrə heç bir halda yol vermək olmaz. Çünki



çimərliklər xalqın üzünə açıq olmalıdır. Təbii ki, Azərbaycanda çimərliyə yaxın evlərin böyük əksəriyyəti hasarlanıb. Heç kim də buna reaksiya vermir. Dənizi hasara almaq, yolu bağlamaq, çimərliyə girişi qadağan etmək düzgün deyil. Belə bir hadisə yaşanırsa, vətəndaşlar bu olanları ictimailəşdirməli və müvafiq orqanlara müraciət edərək hüquqlarının pozulması ilə bağlı addımlar atmalıdırlar. Əks halda, başqa çıxış yolu yoxdur".

Xəzərin hasarlanması ilə bərabər, çirkləndirilməsi də problemlər sırasına daxildir. Bununla bağlı isə Ekologiya və Təbii Sərvətlər Nazirliyi müvafiq işlərə başlayıb. Belə ki, nazirlikdən "Yeni Müsavat"a bildirib ki, onlar hər həftə ictimaiyyəti gördükləri işlə bağlı məlumatlandıracaqlar. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsinin əməkdaşları tərəfindən 24-27 iyun tarixlərində çimərlik ərazilərində növbəti monitorinqlər keçirilib, dəniz suyundan nümunələr götürülüb, mikrobioloji təhlillər aparılıb.

**İdarənin direktoru Ərəstun Həsənov bildirib ki, analizlərin nəticələri bundan əvvəl keçirdiyimiz monitorinqlərin nəticələri ilə eynidir:** "Belə ki, bu dəfə də Bakı və Abşeron yarımadasında Bilgəh, Nardaran, Buzovna, Mərdəkan, Şüvəlan, Novxanı, Zağulba, Pirşağı çimərlik ərazilərində dəniz suyu çimərlik məqsədilə istifadəyə yararlıdır, Türkan, Hövsan, Şıx, Sahil və Sumqayıt çimərliklərinin dəniz suyu isə mikrobioloji baxımdan çirkli olduğundan çimərlik üçün qənaətbəxş deyil".

**ETSN-in rəsmisi Xəzərin şimal və cənub bölgələrində də monitorinqlərin aparıldığını qeyd edib:** "Nəticələrə görə Xaçmazın Yalama, Seyidlər və İstisu (Müxtədir) çimərlik ərazilərində dəniz suyu istifadə üçün yararlı, Nabran ərazisinin dəniz suyu isə çimərlik məqsədilə qeyri-qənaətbəxş hesab olunur.

Lənkəran və Astara rayonları ərazisindəki çimərliklərdə dəniz suyunun tərkibi normalara uyğun olub həmin ərazilərdən çimərlik məqsədilə istifadəyə imkan verir".

Ə.Həsənovun sözlərinə görə, hər həftə ETSN-in mütəxəssisləri tərəfindən çimərliklərdə monitorinqlər keçiriləcək, dəniz suyundan nümunələr götürüləcək və nəticələr barədə ictimaiyyətə məlumat veriləcək.

Yuxarıda qeyd etdiyimiz hasarlanma problemi ilə bağlı Ə.Həsənov bildirib ki, Xəzər dənizi sahillərində ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərinə riayət olunmasını yoxlamaq məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin nümayəndələri ilə birgə reydlər keçirirlər:

"Reydlər zamanı aşkar olunan pozuntularla bağlı məcburi göstərişlər verilir və obyekt sahiblərinə xəbərdarlıq edilir. Problemlərin hansı səviyyədə aradan qaldırılması təkrar qaydada yoxlanılır. Bütün bu məsələlərlə bağlı da ictimaiyyətə mütəmadi məlumatlar verilir və veriləcək".

**Əli RAİS,**
**"Yeni Müsavat"**

# Oyuncaq tapança ilə basqına gedənlərə ağır cəza

## Vətəndaşlara hücum edib soyan 3 gəncə 27 il həbs verildi



**Maskalanaraq mağazalara basqın edən gənclər hakim qarşısına çıxarılıb. Onlar əldə etdikləri malları başqa mağazalara satırmışlar.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində quldurluqda təqsirləndirilən 22 yaşlı Əlisəid Həsənov, 23 yaşlı Fərid Hacıyev, 27 yaşlı Orxan Məmmədli və 23 yaşlı Fərid Hüseynzadənin cinayət işi üzrə məhkəmə iclası davam etdirilib.

Təqsirləndirilən şəxslərdən yalnız Ə.Həsənovun barəsində həbs-qətimkan tədbiri seçilməyib.

Hakim Azər Paşayevin sədrliyi ilə keçirlən prosesdə hökm oxunub.

Hökmə əsasən ev dustaqlığında ola Ə.Həsənova şərti cəza verilib. Digər üç nəfərin hər birinə isə 9 il azadlıqdan məhrumetmə cəzası təyin edilib.

Qeyd edək ki, ötən il Xətai Rayon Polis İdarəsinə müraciət edən paytaxt sakini Qafqaz Qəhrəmanov General Mehmandarov küçəsində yerləşən marketə əllərində tapançaya bənzər əşya və bıçaq olan naməlum şəxslərin basqın etdiyini, daha sonra ona hədə-qorxu gələrək kassadan 230 manat pulu götürüb hadisə yerindən qaçdıqlarını bildirib.

Bakı Şəhər Baş Polis İdarəsinin Cinayət Axtarışı İdarəsi və Xətai Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində quldurluq etməkdə şübhəli bilinən Bakı şəhər sakinləri Fərid Hacıyev, əvvəllər məhkum olunmuş Fərid Hüseynzadə və Orxan Məmmədli də müəyyən edilərək saxlanılıb. Onlar ifadələri zamanı törətdikləri cinayəti etiraf ediblər.

Araşdırma nəticəsində məlum olub ki, hadisə zamanı dəstə üzvləri zərərçəkəni əllərində olan oyuncaq tapança ilə qorxudublar.

Araşdırma zamanı dəstə üzvlərinin Xətai rayonunda daha bir mağazadan soyğunçuluq yolu ilə tütün məmulatları, eləcə də NZS və Bakıxanov qəsəbələrində yerləşən iki marketdən oğurluq etdikləri də məlum olub. Daha sonra Əlisəid Həsənov da saxlanılıb. Cinayət işində 5 zərərçəkmiş var.

**İlkin MURADOV,**
**Musavat.com**

# Wi-Fi kodunu qorumağın yolları

## Osman Gündüz: "Bir sıra təhlükəsizlik qaydaları var ki, onlara əməl etmək lazımdır"

**Wi-Fi kodlarının sındırılması adi hala çevrilib. Artıq istənilən şəxs xüsusi proqramlar vasitəsilə başqasının Wi-Fi-nin kodunu deşifrə edib, ondan istifadə edə bilir. Dəfələrlə bu barədə şikayətçi olan insanlara rast gəlirik. Az olmayan bir vəsait ödəyib, evinə, ofisinə internet çəkdirən şəxslər bir də öyrənir ki, artıq onun Wi-Fi-nin kodunu onunla bərabər qonşuları da bilir və istifadə edir. O da məlumdur ki, Wi-Fi istifadəçilərinin sayı artdıqca, internetin sürəti aşağı düşür.**




Bu məsələ təkcə ölkəmizdə deyil, ən inkişaf etmiş ölkələrdə belə probleme çevrilib. Əgər bundan əvvəl ən güclü və ən təhlükəsiz Wi-Fi şifrələmə protokolu kimi WPA2 tanınırdısa, artıq onun da şifrəsini qırmaq asanlaşıb.

Bəs Wi-Fi kodumuzu necə sığortalayaq?

Mütəxəssislər qeyd edir ki, mənzilə quraşdırılan modemin arxasında İP adresi və parolu qeyd olunur. Müxtəlif brauzerlərdən daxil olub, həmin İP adresini - 192, 168, 11 daxil edib, parol bölməsinə girib, "admin - admin" qeyd edib, daha sonra brodkast-a daxil olub, vareles-dən "brodcast-ı no" rejiminə keçirib, mak adreslərini qeyd etmək lazımdır.

Ekspertlər həmçinin Wi-Fi-ın loginini görünməz etməklə də kənar istifadəçilər üçün çətinlik yarada bilərlər.

**Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz mövzu ilə bağlı "Yeni Müsavat"a danışaraq, öz tövsiyələrini bildirib:**

"Bu, informasiya təhlükəsizliyi problemidir. Texnologiya inkişaf etdikcə bu cür təhlükələr həmişə olacaq. Bu, dünyada da, bizdə də belədir. Sadəcə, bir sıra təhlükəsizlik qaydaları var ki, onlara əməl etmək lazımdır. Məsələn, modemi quraşdıran şəxs bu təhlükəsizlik qaydaları barədə istifadəçiyə məlumat verməlidir, müəyyən təhlükəsizlik işlərini görməlidir. Həmçinin istifadəçi qaydalara riayət etməlidir. Məsələn, istifadə edilməyən zaman internet söndürülməlidir və sairə.

Bununla əlaqədar olaraq Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin yanında Elektron Təhlükəsizlik Xidməti var. İnternetlə bağlı şikayəti olanlar bu quruma müraciət edə bilər. Həmçinin adıçəkilən qurum daim təhlükəsizlik qaydaları ilə bağlı ictimaiyyəti maarifləndirməli, bu yöndə tədbirlər həyata keçirməlidir".

**Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Bakıda avtomobil saxlamağın qadağan olduğu yerlər açıqlandı

**Ekspert:** "Evakuasiya məsələsinin təzədən gündəmə gətirilməsi qüsurludur"

**Əvvəlcədən məlumat verildiyi kimi, yaxın günlərdə Bakıda dayanma, durma və parklanma qaydalarını pozan nəqliyyat vasitələrinin nəzərdə tutulmuş hallarda və qaydada müvəqqəti duracağa daşınması- təxliyə xidmətinə başlanılacaq.**



Bu barədə məlumat verən Bakı Nəqliyyat Agentliyinin (BNA) mətbuat katibi Mais Ağayev sürücülərin məlumatlandırılması məqsədilə ilkin olaraq təxliyə işlərinin həyata keçiriləcəyi ünvanları açıqlayıb:

"Bu ünvanlar vətəndaşların müraciəti və aparılan müvafiq təhlillər nəticəsində müəyyən edilib. Bunlar daha çox şikayət olunan, qanunsuz parklanma səbəbindən günün pik və qeyri-pik saatlarında nəqliyyat sıxlığı müşahidə edilən ərazilərdir".

Ünvanlara nəzər saldıqda görünür ki, demək olar Bakının bütün mərkəzi küçələrində dayanma, durma qaydalarını pozan sürücülərin avtomobilləri evakuasiya olunacaq.

**Bu barədə "Yeni Müsavat"a danışan nəqliyyat eksperti İlqar Hüseynli bildirib ki, əslində baş verənlər göstərir ki, aparılan işlər öncədən hesablanmır:**

"Kameraların quraşdırılması, parklanma üçün ödəmə aparatlarının yığışdırılması və digər bu kimi məsələlərin hamısı çox ziddiyyətlidir. Görünür ki, Bakı şəhərinin prospektləri və infrastrukturu nəqliyyat tutumuna imkan vermir. İkinci tərəfdən də dəqiq hesablanmamış formada büdcənin xərclənməsinə yol verilir. Büdcənin xərclənməsi dedikdə nəyi nəzərdə tuturuq? Baxın, indiki qərardan öncə kameraların quraşdırılması ilə bağlı proses xeyli xərclər hesabına başa gəldi. Daha öncə də düzgün olmayan parklanmaya görə, evakuasiya prosesini aparan şəxslərlə yol polisləri birgə işləyib, yerində park edilməyən avtomobilləri cərimə meydançasına aparırdılar. Ümumiyyətlə, bu kimi hallar dünyanın heç bir inkişaf etmiş ölkələrində yoxdur. Normal nəqliyyat infrastrukturuna sahib olan ölkələrdə, çox istisna hallarda nəqliyyatın evakuasiyasına yol verilir. Bu, hansısa yanğın zamanı, yaxud da çox ciddi dövlət tədbirləri zamanı baş verə bilər. Əgər dövlət tədbiridirsə və tədbirin keçirildiyi ərazidə avtomobil park edilibsə, yalnız bu zaman onu evakuasiya edirlər. Azərbaycanda isə Bakı şəhərinin bütün prospektləri dayanma və durma işarəsinin təsiri altındadır. Çox təəssüf ki, bizim 11-12 il bundan öncə təklif etdiyimiz dayanacaqların tikintisi prosesi baş vermədi. Bakıda qaydasız formada xeyli sayda binalar tikilib. Bu binalar həm şəhərin gözəlliyini pozur, həm də heç bir faydası yoxdur. Əgər onun yerində Avropa ölkələrindəki kimi çoxmərtəbəli dayanacaqlar inşa etsəydik o zaman sözsüz ki, vəziyyət başqa olardı. Dayanacaqlar tikilsəydi, dayanma və durma qaydaları ilə bağlı məsələ də öz həllini tapardı. Cərimə də olunanlara deyilərdi ki, sən avtomobili dayanacaq olduğu halda, prospektdə saxlamısan. Bəs indiki halda insanlar nə etsinlər? İşə gələn, xəstəsi olan var. Adam var ki, məcbur olub maşınını haradasa 15 dəqiqəlik saxlayır, gəlib görür ki, maşın yoxdur".

**Ekspert bildirib ki, BNA çox doğru bir addım atmışdı və sadəcə, cərimələrin yazılması ilə kifayətlənirdi:**

"İndi də vəsaitin itirilməsi məsələsinə görə Bakı Nəqliyyat Agentliyi təzədən bu məsələyə qayıtdı. Ancaq məsələyə yenidən qayıtmazdan öncə, vətəndaşların normal qaydada avtomobillərini park etmələri üçün lazım olan yerlərin sayını artırmaq lazım idi. Bu qaydaların bir xeyli hissəsini yığışdırmaq lazımdır. Elə prospektlərimiz var ki, orada ən sonuncu xətdə belə maşınların dayanması heç bir problem yaratmır. Ciddi şəkildə müşahidə etmişəm və bu nəticəyə gəlmişəm. Eyni zamanda dünya praktikasından da yararlanmaq olar. Dünyada elə prospektlər var ki, orada səhər saat 8-dən saat 20:00-a qədər parklanmaya qadağa qoyulur. Elə insanlarımız var ki, axşamlar ailəsi ilə birlikdə şəhərə çıxırlar və nəqliyyatın sıx olmadığı vaxtda, qadağan olunmuş yerlərdə park etmək məcburiyyətində qalırlar. Bu adamlar nəqliyyatın intensivliyinə mane olmurlar. Xaricdə bu zaman cərimələr yazılmır. Bizdə isə proses kortəbii surətdə həll olunur. Bakı Nəqliyyat Agentliyinin ümumi olaraq gördüyü işin yekun dəyərləndirməsini aparsaq görərik ki, bu işlərin xeyli hissəsində qüsurlar var. Xüsusən də evakuasiya məsələsinin təzədən gündəmə gətirilməsi qüsurludur. Burada ilk növbədə vətəndaşların rahatlığını təmin etmək lazımdır. Vətəndaş ailəsi ilə kinoya gedir, çıxanda görür ki, avtomobili yoxdur. Bilmir də ki, hansı dayanacağa aparıblar. Bunu idarəetmə strukturlarında olan anormallığın göstəricisi kimi dəyərləndirə bilərik. Düşünürəm ki, Bakı Nəqliyyat Agentliyi bu məsələ ilə bağlı bir də araşdırma aparmalıdır. "Mən belə istəyirəm, belə də olmalıdır" prinsipi ilə işləmək doğru deyil. Nəqliyyat vasitələrinin parklanması üçün imkanları da artırmaq gərəkdir. Əgər bunun üçün imkanları yoxdursa, pullu dayanacaqların sayı kifayət etmirsə, o zaman zəhmət çəkib, "saxlamaq qadağandır" işarələrini "Parking" işarələri ilə əvəz etsinlər. Çox istisna prospektlərdə, dövlətin strateji əhəmiyyətli yollarında parklanma ilə qadağaları qoymaq olar. Əks halda, proseslər çətinliyə və narazılıqlara səbəb olacaq".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**


ulduzum

## «Bakcell» şirkətinin "Ulduzum" proqramının partnyor sayı 300-ü keçib




**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi «Bakcell» şirkəti böyük məmnuniyyətlə elan edir ki, şirkətin "Ulduzum" loyallıq proqramı çərçivəsində abunəçilərə endirim və əlavə fürsətlər təqdim edən partnyorların sayı 300-ü keçib.**

**Qeyd edək ki, öz abunəçilərini eksklüziv endirim və üstünlüklərlə təmin etmək məqsədilə «Bakcell» ölkənin ən genişmiqyaslı loyallıq proqramlarından birini həyata keçirir. "Ulduzum" proqramı artıq 300-dən çox tərəfdaş vasitəsilə «Bakcell» abunəçilərinə 500-dən artıq satış və xidmət nöqtəsində yüzlərlə maraqlı təklifdən yararlanmaq imkanı yaradır. Proqramın geniş partnyor şəbəkəsinə populyar restoranlar və geyim dükanları, aparıcı kinoteatrlar, elektronika dükanları, tibbi, gözəllik, idman və əyləncə mərkəzləri, banklar, kabel televiziyaları, taksi və beynəlxalq çatdırılma xidmətləri və hətta aviaşirkətlər daxildir.**

**«Bakcell» 2 il bundan əvvəl özünün "Ulduzum" loyallıq proqramının partnyor siyahısına Türk Hava Yollarının "Miles & Smiles" proqramını daxil edən ilk şirkətlərdən olub. Belə ki, "Ulduzum" istifadəçiləri mobil rabitə xidmətlərinə xərclənən hər 1 manata 3 milə qədər qazanmaq imkanına malikdirlər.**

**«Bakcell» şirkətinin həyata keçirdiyi "Ulduzum" loyallıq proqramının əsas məqsədi abunəçilərə təkcə endirim və üstünlüklər təqdim etmək yox, onların gündəlik həyatına rahatlıq gətirmək, eyni zamanda loyallıq, etibar və şəffaflıq üzərində qurulmuş münasibətləri möhkəmləndirməkdir.**

**Hər bir «Bakcell» abunəçisi "Ulduzum" proqramından yararlana bilər. Xüsusi təklif və eksklüziv endirimlərdən faydalanmaq üçün abunəçi xüsusi mobil tətbiqetmə vasitəsilə, telefonda *5555#YES kodunu yığmaqla və yaxud * işarəsini 5555 nömrəsinə SMS vasitəsilə göndərməklə "Ulduzum" kodunu əldə etməlidir. Əldə olunmuş kod alış-veriş və yaxud xidmətlərin ödənilməsi zamanı təqdim edilməlidir. Proqram barədə ətraflı məlumat üçün www.ulduzum.az ttp://www.ulduzum.az səhifəsinə daxil olun.**

### «Bakcell» haqqında

**Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi «Bakcell» şirkəti müasir mobil kommunikasiya xidmətləri istifadəçilərinə geniş çeşiddə məhsullar təklif edir. Şirkət öz abunəçilərinə ən mükəmməl 4G/LTE mobil internet xidməti göstərir.**

**«Bakcell» şirkətinin 4G şəbəkəsi artıq bütün Bakı və Abşeron ərazisi daxil olmaqla ölkənin 40-dan çox rayon və şəhər mərkəzlərində mobil operatorun abunəçilərinə ən üstün müştəri təcrübəsi təmin edir.**

**7500-dən artıq baza stansiyası vasitəsilə «Bakcell» şəbəkəsi əhalinin 99%-ni, ölkə ərazisinin isə 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir. Mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan "P3 Communications" şirkəti tərəfindən «Bakcell» şirkəti Azərbaycanda sınaq nəticələrinə görə, ən yaxşı şəbəkə adına layiq görülüb ("Best in Test"). 2018-ci ildə şirkət "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülüb. Bu mükafat bütün dünyada tanınmış "Ookla" şirkəti tərəfindən "«Bakcell»"ə Azərbaycan Respublikası ərazisində ən sürətli mobil internet xidmətlərinin göstərilməsinə görə təqdim edilib**

**«Bakcell» və onun məhsul və xidmətləri haqqında ətraflı məlumat əldə etmək üçün, xahiş edirik, www.«Bakcell».com internet səhifəsinə daxil olun və ya 555-ə zəng edin. Press-relizlərlə tanış olmaq üçün www.«Bakcell».com/az/news (və ya İngilis dili üçün www.«Bakcell».com/en/news) səhifəsinə daxil olun.**

**Qeyri-«Bakcell» abunəçiləri isə 012 498 89 89 nömrəsinə zəng etməklə "«Bakcell»"in məhsul və xidmətləri haqqında məlumat əldə edə bilərlər.**





## "Nar" bir sıra hərbi hissələrdə mobil danışıq nöqtəsi yaratdı

**26 iyun - Azərbaycan Respublikası Silahlı Qüvvələr Günü münasibətilə "Nar" növbəti uğurlu layihəsini icra edib. Belə ki, mobil operator Müdafiə Nazirliyinin dəstəyi ilə cəbhəyani zonada yerləşən bir sıra hərbi hissələrdə "Nar" danışıq nöqtəsi yatadıb. Məqsəd əsgərlərimizin öz yaxınları, doğmaları ilə daha yaxın olmaları və mütamadi təmas qurmalarına dəstək olmaqdır. Hərbi hissələrdə yaradılan "Nar" danışıq nöqtəsində əsgərlər istədikləri qədər öz yaxınları ilə danışa biləcəklər.**

**Qeyd edək ki, bayram günü mobil operator vətən keşiyində duran əsgərlərimizi sevindirmək, onlara olan hörmətini bildirmək məqsədilə, cəbhə bölgəsində yerləşən "N" saylı hərbi hissəyə səfər edib və Azərbaycan ordusunun əsgərləri ilə görüşüb. Bundan başqa, hərbi hissələrə əsgərlərin asudə vaxtının səmərəli təşkili üçün müxtəlif hədiyyələr də təqdim edilib.**

**Əsgərlərlə görüşü zamanı "Nar"-ın İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Əziz Axundov bildirib ki, artıq ikinci ildir ki, mobil operator Müdafiə Nazirliyi ilə birgə uğurlu layihəsini icra edir: "Silahlı Qüvvələr Günündə əsgərlərlə birgə olmaq bizim üçün qürurvericidir. Ötən il sərhədyanı bölgədə xidmət edən 100-ə qədər əsgərin bayramı öz valideyni ilə birgə qeyd etməsində yaxından iştirak etdik. Bu il isə 100-lərlə hərbçinin doğmaları ilə sərhədsiz ünsiyyət qurmaları üçün "Nar" danışıq nöqtələri yaratdıq. Vətənə bağlılıq kimi ümdə vəzifələrə hər zaman həssas yanaşan "Nar", əsgərlərimizə hər hansı mənəvi dəstək göstrəməyi özünə borc bilir. Bu şərəfli yolda xidmət edən əsgərlərimizə yaxınları ilə öz sevinclərini və xoş xəbərlərini bölüşməsini arzulayırıq".**

**Qeyd edək ki, "Nar" ötən ilin martında Müdafiə Nazirliyi ilə birlikdə ölkəmizin müxtəlif bölgələrindən 100-dən çox valideynin cəbhə bölgəsində yerləşən "N" saylı hərbi hissədə əsgərlərlə görüşünü təşkil edilmişdi. Müdafiə Nazirliyinin dəstəyi ilə həyata keçirilən bu bayram görüşü nəticəsində valideynlər cəbhədə xidmət göstərən övladları ilə bərabər Novruz bayramını qeyd etmişdi.**

**Vətənə bağlılığın təşviqi Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilmiş brendimizin əsas amallarındandır.**

**"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7500-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.**

YENİ MÜSAVAT
N 137 (7307) 29 iyun 2019

# Yay tətilində "avropalı" kimi istirahət etmək üçün nə edək?

## Ucuz və sərfəli tətilin şərtləri, ölkə daxilində və onun xaricində təklif edilən qiymətlər...

**Yayın bir ayını geridə qoyduq. Qarşıdakı 2 ay yay istirahətini təşkil etmək istəyənlər üçün axtarışda keçəcək. Təbii ki, indi siz deyə bilərsiz ki, imkanı olan insanlar üçün axtarışlara, ucuz turpaketlər üçün "marığa yatmağa" ehtiyac yoxdur. Bir həftə əvvəldən arzulanan şəhərə arzulanan turpaketi əldə etmək üçün pulqabının dolu olması yetərlidir.**

Amma insan bütün hallarda çoxluğu da düşünmək istəyir. Çünki turpaketlə dünyanın ən populyar istirahət məkanlarına getmək, bir həftəlik ailəvi turpaket üçün 3000-5000 manat ödəmək heç də hər kəsin cibi üçün uyğun deyil. "Yeni Müsavat" bu yazıda ucuz tətilin yolları barədə bir neçə variant təqdim edəcək.

### Ucuz yay tətili üçün qışda düşünmək vacibdir

Bilirsiniz ki, avropalılar tətil zamanı maksimum praktik və qənaətcil olurlar. Onların istirahət anlayışı ilə biz qafqazlıların istirahət anlayışı arasında xeyli fərq var. Maşın-evlə dəniz sahilində günəşlənən nə qədər avropalı görmüsüz? Yolunuz Avropaya, Amerikaya düşübsə, bu mənzərələri görmüsüz. Onlar istirahət deyəndə çox pul xərcləməyi yox, az pul xərcləməklə maksimum boşalmağı planlaşdırırlar.

İlk variant olaraq onu xatırladaq ki, yay tətil paketini qışda alanlar hər zaman qazanclı çıxırlar. Xüsusən nəzərə alanda ki, ortada hissə-hissə ödəmək imkanı var. Yaxşı, bəs həqiqətən də endirim olurmu? Əlbəttə ki, 50%-ə qədər erkən rezervasiya endirimlərindən faydalanmaq mümkündür. Amma nəzərə alaq ki, bu, hər hoteldə, hər zaman olmur. Bəs nədir erkən rezervasiyanın üstünlükləri?

Birincisi və təbii ki, ən önəmli məqam hotellə bağlıdır. Yaxşı bir hoteldə qalmaq, keyfiyyətli yuxu və mərkəzə yaxın olma kimi kriteriyalar insanın səyahətinə təsir edir. Yuxarıda da qeyd etdiyimiz kimi, hotellərin topdan satış etməsi və rəqabət şərtləri erkən rezervasiya zamanı qiymətləri çox aşağı salır. Siz də büdcənizə qənaət edəcəyinizdən, qalacağınız hoteli istəyinizə uyğun şəkildə və rezervasiyanızı aylar öncədən seçə bilirsiniz.

İkinci məqam ucuz təyyarə biletidir. Aylar əvvəldən dəqiqləşdirilmiş səyahət planınıza uyğun təyyarə bileti tapmaq da asan olacaq. Hava yolu şirkətləri uçuş biletlərini oturacaqları blok-blok ayıraraq satışa çıxarırlar. Hər blokun ayrı qiyməti olur və bir blok dolduqda digəri satışa çıxarılır. Buna görə də uçuş tarixinə az qalmış bilet qiymətləri yüksəlir. Uçuş tarixiniz dəqiqləşdikdən sonra axtarış edərək, fərqli alternativlərə göz gəzdirə və ən ucuz təyyarə biletini ala bilərsiniz. Beləliklə, səyahətinizin ən vacib büdcə maddələrindən biri də problemsiz həll ola bilər.

Tətilinizi əvvəlcədən planlamadıqda həmin tarixə az qalıbsa, istədiyiniz hoteldə, istədiyiniz otağı tapmaq çətin olacaq. Erkən rezervasiya sistemində hər şeyin yaxşısını seçmək və sonradan sürpriz yaşamamaq rezervasiya edənin faydalana biləcəyi imkanlardan biridir. Təxmini təsəvvür yaransın deyə, hər hansı kinoteatra getdiyinizdə salonda bütün oturacaqların boş olduğunu və bütün seçimlərin sizin üçün olduğunu düşünün...

Yeri gəlmişkən, səyahət zamanınız dəqiqləşdiyindən həmin tarixlərdə müəyyən olunmuş konsert, tədbir, ekskursiyalar və digər fəaliyyətlər üçün rezervasiya etdirmək, tematik park, muzey və nəqliyyat kimi digər detalları da aylar əvvəldən satın alaraq həm rahat planlama etmək, həm də əlavə endirim qazanmaq mümkündür.

Planlarınızda hər hansı dəyişiklik olması halında ödədiyiniz məbləğin tam və ya müəyyən qismini geri qaytarmağınız üçün də erkən rezervasiya şərtləri çox uyğun ola bilər. Bəzi hallarda bu dəyişiklik və ləğv etmə imkanları tətilinizin başlamasına 72 saat qalmışa qədər belə verilə bilər.

### Sutkası 10 manata olan kənd evləri - ona istirahət demək olarmı?

Hesab edək ki, qışda bu fürsəti qaçırmısız. O zaman ölkə daxilindəki ucuz tətil imkanlarından yararlanmaq üçün seçimlərə diqqət etmək lazımdır. Seçimlər arasında isə ən rahatı Azərbaycanın bölgələrində günlük kirayə evlərdir. Ayrı-ayrı bölgələr üzrə ev qiymətləri ilə maraqlananlar isə ortaya fərqli mənzərələr çıxır.

Başlayaq, Nabrandan. Nabranda ev qiymətləri bir çox hallarda adam hesabı ilə götürülür. Belə ki, ailə fərdlərinin sayından asılı olaraq, qiymət müəyyənləşdirilir. Ən geniş yayılmış tarif adambaşına 10 manatdır. Belə ki, sadə, şəraiti normal olan evlərdə 4 nəfərlik ailə 1 həftə qalmaq istəyirsə 280 manat ödəməlidir. Amma biz buna yemək-əyləncə məsrəflərini də əlavə etsək, zövqdən və standartdan asılı olaraq, 600-1000 manat arasında dəyişir. Nəzərə alsaq ki, Nabran meşə və dəniz "cütlüyünü" özündə birləşdirən nadir məkanlardandır, bu zaman istirahət seçimi üçün normal sayılır.

Xatırladaq ki, Nabranda kiçik kotteclər də kirayəyə verilir. Onların gündəlik qiyməti isə 70-500 manat arasında dəyişir. Kottec-villaların gündəlik qiyməti oradakı otaqların sayından, şəraitdən, bir çox hallarda isə səhər yeməyi verilib-verilməməsindən asılı olur.

Kiçik bir detalı da xatırladaq: əgər sizə 4 nəfərlik kottec üçün 50-60 manat qiymət təklif olunubsa, oradakı otaqların və yataq yerlərinin sayına xüsusi diqqət edin. Çünki 4 nəfərlik kottecləri cəmi bir otaq, bir koridor olur. Koridora isə açılıb-qapanan divan yerləşdirilərək, onu 4 nəfərlik yataq yeri kimi təqdim edirlər. Siz bu şərtlərin 4 nəfərlik ailə üçün azlıq təşkil etdiyini deyəndə isə əlavə çarpayı təklif olunur. Amma əlavə olaraq, sutkası 10 manata.

Qaxda, Zaqatalada da evlərin gündəlik kirayə haqqı 30 manatdan başlanır və 300 manata qədər yüksəlir.

Qəbələ də qiymət baxımdan aşağı-yuxarı eyni şərtləri təqdim edir. Orada da evlərin bir günlük qiymətləri 35 manatdan başlanır. Bu sayaq evlər əsasən ikiotaqlı olur və ev sahibi onu bütün əşyaları ilə sizə verir. Bir çox hallarda içində soyuducusu, televizoru və bəzən də kondisioneri olan evlərdən danışırıq. Amma Qəbələ kənd evlərinin ən çox kirayə verildiyi məkandır və burada bir günlük kirayəsi 600 manat olan üçmərtəbəli villalar da var. Təcrübə göstərir ki, bu cür bahalı villaları bir neçə tanış, dost ailə birgə kirayələyir. Yemək məsələsi də növbəlilik prinsipi ilə (hər gün bir ailə yemək məsrəflərini üzərinə götürür) həll olunduğu üçün problem yoluna qoyulur.

Şəkinin kirayə ev bazarı da son illər xeyli inkişaf edib. Orada da adambaşına 10 manata kirayə verilən evlər var. Yəni 5 nəfərlik ailə bir sutka üçün 50 manat ödəmək şərtilə təkliflər verilir. Amma bu, ən minimal qiymətdir. Bəzən adamların sayı nəzərə alınmadan, həyət evlərinin bir sutkası üçün 100-300 manat da təklif edilir.

Nəzərə alaq ki, bölgələrdə ev kirayələyən ailələr bir çox hallarda yeməklərini də evdə hazırlayır. Bu isə evin xanımının hədsiz yüklənməsi və istirahət etməməsi anlamına gəlir. Ona görə də sual meydana çıxır: buna istirahət demək olarmı? Yemək, qab-qaşıq, ev təmizliyi...

### İkigünlük turlar - nəfəs almaq üçün vasitə...

Bu arada yeni bir xidmət də populyarlıq qazanıb. Bu, birgünlük-ikigünlük-üçgünlük turlardır. Bəzi turizm şirkətləri ölkə daxilindəki bəzi rayonlara belə qısamüddətli turlar təşkil edirlər. Amma burada da qiymətlər yeməklərin sayından, göstərilən xidmətdən asılıdır.

Söhbət yerli turistlərin avtobuslarla Nabrana, Masallıya və ya Qəbələyə aparılmasından gedir. İstirahət proqramı çərçivəsində turistlərə gündə iki dəfə yemək verilir. Yeməkdən imtina edənlər özləri ilə gətirdiyi yeməklə qidalanırlar. Amma bu sayaq turların normal qiyməti 50 manatdır. İki-üç günlük turlar isə müvafiq olaraq 100-150 manatdır.



### Bakı bağlarından əlinizi üzün - onlar astronomik qiymətlərədir

Fatmayi, Novxanı qəsəbələrində, dəniz kənarına yaxın yerlərdə villaların kirayəsi üçün ayda 2500-3500 manat ödəmək lazım gəlir. Dənizdən 500-700 metr aralı 1-2 otaqlı mənzil icarəyə götürmək üçün 800 manat, 3-4 otaqlı, hər şəraitli, dənizdən 500 metr aralı olan mənzildə qalmağa isə 1000-2000 manat xərc çəkmək lazımdır. Amma Fatmayidə aşağı şəraitli, 2 otaqlı bağ evlərinin kirayəsi 700 manatdan başlanır.

Hövsanda şəraitsiz 1 otaqlı bağ evinə 700 manat, şəraiti olanlara isə 800-1000 manat pul vermək lazımdır.

Nardaranda dənizə yaxın ərazidə yerləşən bağ evləri, yaxud villalar 1000 manata, 1-2 otaqlılar isə 700 manata kirayəyə verilir. Bilgəhdə 1-3 otaqlı bağlar 1000-2000 manata verilir ki, belə evlər dənizə yaxın yerlərdədir. Bu kateqoriyada əsasən çox şıq villalar yer alır. Ev partiləri, ad günləri, nişan, hətta ailə arası toy keçirmək üçün villa kirayələyənlər var. Villanın durumundan asılı olaraq birgünlük kirayə 300-700 manat arası dəyişir.

Sonda zəruri qeyd kimi bildirək ki, Bakı bağlarının kirayəsi əsasən bir aylıq yox, üç aylıq olur. Belə ki, bağ sahibləri "yayı bölməmək" adı ilə belə bir seçim edir, bir aya müştəri tapıb, digər iki ayın boş qalacağından narahat olub bağı 3 aylıq kirayə verirlər. Bu isə sonuc etibarilə məqbul qiymət demək deyil...

**Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
Son səhifə
N 137 (7307) 29 iyun 2019

## Bunları bilirdinizmi?

* Bütün ölkələrin əsgərləri sağ əllə salam verir.

* İnsan beynində 1 saniyədə 100 000 kimyəvi reaksiya baş verir.

* Uşaqlar diz qapaqsız doğulur, qapaqlar 2-6 yaşda yaranır.

* Həyatı boyu insanın hər barmağı 25 milyon dəfə əyilir.

* Bir ildə 21 milyon 557 min 600 saniyə var.

* İlk coğrafi atlas e.ə.150-ci ildə alim Ptolomey tərəfindən yaradılıb, 1477-ci ildə Boloniya şəhərində çap edilib.

* Tüdorun hakimiyyəti dövründə İngiltərədə sıx bağlanmış korset və biləkdə çoxlu qolbaqlar bakirəlik əlaməti hesab olunurdu.

* İnsan bədənindəki əsəb impulsları saniyədə 90 m sürətlə dəyişir.

* Ağciyərin üzəri 100 kvadrat metrdir. Onun üst qatının sahəsi tennis kortunun sahəsinə bərabərdir.

* Dünya əhalisinin qidasının 70%-dən çoxu 12 çeşiddə bitki və 5 növ heyvandan ibarətdir.

* Stalinin 70 illiyinə bağışlanmış hədiyyələrin siyahısı elə uzundur ki, onu qəzetlər 1949-cu ilin dekabrından 1953-cü ilin martınadək dərc etməli olmuşdular.

* İnsan beyni gündə dünyadakı bütün telefonlardan daha çox elektrik impuls edir.

* Maksimal sayda krossvordu Adrian Bell hazırlayıb. 1930-cu ilin yanvarından 1980-ci ilə qədər o, "Tayms" qəzetinə 4520 krossvord yollayıb.

* İngiltərədə çap olunan ilk kitab şahmata həsr olunub.

* Kitab oxuyarkən hər saniyədə 70 hüceyrə ölür.

* İnsanın gün ərzində orta gücü 100 vatt, ürəyinin gücü isə 10 vatdır.

* Açıq gözlə asqırmaq qeyri-mümkündür.

* İnsan ağzında 40 000 bakteriya var.

* İnsanların 70%-i çoxluğun fikrindən asılıdır. Yalnız 30% insan öz fikri ilə hərəkət edir.

# Dikdaban geyindi, maşın vurdu

**Yüksək dikdaban geyinən qız yolu qaçaraq keçməyə çalışanda maşının altına düşüb. Baş vermiş olayın videosu "Daily Mail"də nəşr olunub.**



İnsident Meksikanın Noqales şəhərində baş verib. Minevra adlı 22 yaşlı qız üç xətti keçməyə çalışıb. Bu xətlərin hər birindən çoxlu sayda maşın keçirmiş. Bütün baş verənləri təhlil edəndə məlum olub ki, hərəkət zamanı qız telefonla danışırmış. Üçüncü xətti keçəndə qız özünü tənzimləyə bilməyib və birbaşa maşının təkərləri altına düşüb. Müşahidəçilər qıza kömək etməyə cəhd ediblər. Nəşr eyni zamanda qeyd edib ki, zərərçəkmişi bir neçə sınıqla yerli xəstəxanaya çatdırıblar. Hazırda onun durumu stabil qiymətləndirilir.



## Qadın qırmızı geyinibsə... onu heç kim rədd etmir

**Nyu-Yorkdakı Roçester Universitetinin elm adamları təsdiq edirlər ki, qırmızı paltar geyinən qadınlar kişilər üçün daha cəlbedici və cazibədar olurlar. Nyu-Yorkdakı Roçester Universitetinin araşdırmasında 96 kişiyə müxtəlif rənglərdə paltar geyinən qadınların fotoları təqdim edilib. Nəticədə heç bir rəng qırmızı rəng qədər kişiləri cəlb etməyib. Kişilərin fikrincə, qırmızı paltar geyinən qadınların onları rədd etməsi ehtimalı daha azdır. Ən azından, alimlər qırmızı rəngin cəlbediciliyinə belə şərh verirlər.**

## Qarnındakı körpə öldürüldü, ana məhkəmə qarşısına çıxacaq

**ABŞ-ın Alabama ştatında bir qadın girdiyi davada qarnından vurularaq uşağını itirib. O, doğmamış körpəsinin ölümünə səbəb olduğu üçün məhkəmə qarşısına çıxacaq. 27 yaşlı Marşay Cons davanı başlayan şəxs olduğu üçün saxlanılıb. Consu vuran 23 yaşındakı Eboni Cemison isə keçən dekabrda yaşandığı qeyd edilən hadisədə cəza almayıb. Cemison haqqında da ölümə səbəb vermək ittihamından iddianamə hazırlanıb, amma jüri bunu rədd etdiyi üçün məhkəmə işi təxirə düşmüşdü.**

Polis yetkililərinə görə, Consla Ceymson arasında bir mağazanın qarşısında körpənin atasının kim olması mövzusunda dava çıxıb. Ceymson Consu qarnından vurdu, Cons isə körpəsini itirib. Polis Consun davanı başladan şəxs olaraq körpəsinin həyatını təhlükəyə atdığını, Ceymsonun da özünü müdafiə etmək məcburiyyətində qaldığını deyir: "Burada yeganə qurban doğulmamış körpədir. Körpənin ölümü ilə nəticələnən davanı o başladı və davam etdirdi. Anasının qorumasına möhtac olan körpə lazımsız bir şəkildə davanın içinə çəkildi".

Çərşənbə günü saxlanan Cons 50 min dollarlıq girovu ödədikdən sonra azadlığa buraxılıb.

# Oğurladığı pulu 12 il sonra qaytardı



**12 il əvvəl bir mağazadan oğurluq edən adam aradan uzun illər keçməsinə baxmayaraq, götürdüyü pulları geri qaytarıb.**

ABŞ-da yaşayan Sombook Vu adlı oğlan 12 il əvvəl bir mağazaya girib. O, silahla mağaza sahibini qorxudub və ondan 300 dollar alıb. Daha sonra hadisə yerindən qaçan oğlan peşman olub. 12 il boyunca hər gün etdiyi oğurluğu xatırlayan və utanan Vu pulları geri qaytarmağa qərar verib. O, bir zərfə 400 dollar qoyub və məktubla bərabər mağaza sahibinin oğluna verib. Zərfi təhvil verdikdən sonra mağazadan ayrılan Vu məktubda bu sözləri yazıb: "12 il əvvəl bu mağazadan oğurluq eləmişdim. O vaxtlar narkotikdən istifadə edirdim deyə məcbur qalmışdım. Artıq narkotikdən istifadə etmirəm. Bu zərfdə pullar var. Xahiş edirəm onları qəbul edin. Düşünürəm ki, məni bağışlayacaqsınız".

Mağaza sahibi oğrunun pulu geri qaytarmasının onu təəccübləndirdiyini və onu bağışlamağa hazır olduğunu bildirib.



## Portağalı çox yeyənləri bu gözləyir

**Alimlər portağaldan həftədə ən çox 2-3 dəfə istifadə etməyi məsləhət görüblər. Britaniya alimləri bu qərara gəliblər ki, dünyada çox məşhur olan limon və xüsusilə də portağal insanların sümük sisteminə zərər vura bilər.**

Alimlər 22 il ərzində 78 min qadının sağlamlığını müayinə ediblər. Alimlərin müşahidəsinə görə, tədqiqatın 778 iştirakçısının dişlərinin vəziyyəti kəskin pisləşib. Təhlil göstərib ki, bu meyvələrdən daim istifadə edən qadınların 41%-nin dişlərində və diş ətlərində problem müşahidə edilib. Problemin əsas səbəbkarı kimi portağalda olan fruktoza sayılıb. Alimlər qadınlara problemdən qurtulmaq üçün portağaldan həftədə 2-3 dəfə istifadə etməyi məsləhət görüblər.

## Ata-anasını və ailəsini öldürən kişi azadlığa çıxdı

**Fransada ana-atası, arvadı və uşaqlarını öldürən və həyatı bir kitabla iki kinoya ssenari olan Jan Cloud Romand adlı məhkum 26 il həbsdə yatandan sonra azadlığa buraxılıb.**



Cinayətləri etmədən öncə 18 il boyunca özünü tibb fakültəsi tələbəsi, ardınca da Ümumdünya Səhiyyə Təşkilatında araşdırmaçı olaraq tanıdan Romand əslində ailə dostlarından "İsveçrədə investisiya qoyuram" bəhanəsi ilə aldığı pullarla dolanıb. Artıq 65 yaşında olan Romand etdikləri deşifrə olmaq üzrə ikən, 1993-cü ildə yaxınlarını öldürməyə başlayıb. 1996-cı ildə ömürlük həbs cəzasına məhkum edilən Romand 2015-ci ildə şərtli azadlığa buraxılma müraciəti haqqını əldə etmişdi.

Yaxın çevrəsinin "nümunəvi bir tələbə" deyə göstərdiyi Romand 1974-cü ildə girdiyi Lyon Tibb Fakültəsində ilk ilin sonunda imtahanlara girməmişdi. 12 il boyunca yenə də heç bir imtahana girmədən birinci kursu təkrarlayan Romand daha sonra həkim olduğunu demiş və mərkəzi Cenevrədə olan WHO-da işə başladığını iddia etmişdi.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 3.190